# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 yanvar 2026-cı il, bazar ertəsi
№ 015 (7082)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-İsrail münasibətləri inkişaf yolundadır

Bax səh. 2

# “Biz Azərbaycanla strateji tərəfdaşlığımızı möhkəmləndirəcəyik”

# Donald Tramp İlham Əliyevə təşəkkür edib



Bax səh. 2

# İnsan qardaşlığına xidmət edən sülh siyasəti

Bax səh. 3

## Azərbaycan ikinci neft bumunu yaşayacaq

Prezident İlham Əliyev bu günlərdə Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırarkən ölkəmizin perspektiv neft hasilatı ilə bağlı nikbin fikirlər bildirib. Ölkədə “neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlarımız var” deyən dövlətimizin başçısı vurğulayıb: “Əgər beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr versə, Azərbaycanda ikinci mühüm neft bumunu yaşaya biləcəyimizə dair çox haqlı ümidlərimiz var”.

Sirr deyil ki, müstəqil Azərbaycanın iqtisadi siyasətinin ana xəttini məhz neft strategiyası təşkil edir. Ulu öndər...

Bax səh. 4



Bax səh. 3

## YAP Sədrinin müavini Tahir Budaqov Vyetnam Kommunist Partiyasının Baş katibi ilə görüşüb

## Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

Azərbaycan və İsrail sabitliyin tərəfdarıdır. Diplomatik əlaqələr dostluğumuzu daha da gücləndirib və bu, hər iki tərəf üçün faydalıdır. Bu barədə İsrailin xarici işlər naziri Gideon Saar azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə keçirilən brifinqdə söyləyib. Qeyd edib ki, Azərbaycanda yəhudilər həmişə sülh şəraitində yaşayıblar və ikitərəfli münasibətlərin inkişafına töhfə verirlər. O, bildirib ki, ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlər inkişaf edərək daha da möhkəmlənməkdədir. İqtisadi əlaqələrin artmasımda Hökumətlərarası Birgə Komissiyanın iclasları müsbət rol oynamaqdadır. Hazırda 124 İsrail şirkəti Azərbaycanda fəal iş və layihələr həyata keçirir. Ənənəvi olaraq enerji sahəsi böyük əməkdaşlıq istiqamətlərindən biri və birincisidir. 2025-ci ildə...

Bax səh. 4

## Asiya Parlament Assambleyasının sessiyasında

Bax səh. 3

## 30 illik tərəfdaşlıq...

Bax səh. 6

## Ukrayna təhlükəsizlik zəmanəti tələb edir



Bax səh. 6

# Azərbaycan-İsrail münasibətləri inkişaf yolundadır



## Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər nazirini qəbul edib



Prezident İlham Əliyev yanvarın 26-da İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib. Söhbət zamanı bir neçə gün əvvəl Davosda Azərbaycan və İsrail prezidentlərinin görüşü məmnunluqla xatırlanıb, həmin görüş əsnasında ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirə olunduğu bildirilib.

Ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulanıb, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edilib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunulub. Eyni zamanda, hökumətlərarası komissiyanın rolu qeyd edilərək, bu yaxınlarda komissiyanın növbəti iclasının keçirildiyi vurğulanıb.

Gideon Saar onu bu səfərdə böyük biznes və işgüzar dairələrin nümayəndələrinin müşayiət etdiyini deyərək, səfər çərçivəsində keçiriləcək Azərbaycan-İsrail biznes-forumunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini qeyd edib. O, Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan Prezidenti Avstraliyanın General-Qubernatorunu təbrik edib



Prezident İlham Əliyev Avstraliya İttifaqının General-Qubernatoru xanım Samanta Mostinə bu ölkənin milli bayramı münasibətilə məktub ünvanlayıb. General-Qubernatora və Avstraliya xalqına öz adından və Azərbaycan xalqı adından təbriklərini çatdıran dövlətimizin başçısı qeyd edib: "İnanıram ki, Azərbaycan ilə Avstraliya arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq ruhunda inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik".

Prezident İlham Əliyev Samanta Mostinə cansağlığı, işlərində uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq diləyib.

# Donald Tramp Prezident İlham Əliyevə təşəkkür etdi

## "Biz Azərbaycanla strateji tərəfdaşlığımızı möhkəmləndirəcəyik"

Beynəlxalq siyasi mənzərənin sürətlə dəyişdiyi, qlobal güc mərkəzlərinin yenidən formalaşdığı bir mərhələdə ABŞ-Azərbaycan münasibətləri də yeni məzmun və strateji dərinlik qazanmaqdadır. Xüsusilə Donald Trampın ikinci dəfə ABŞ prezidenti kimi hakimiyyətə qayıdışı Vaşinqtonun Cənubi Qafqaza baxışında praqmatik və qarşılıqlı maraqlara əsaslanan yanaşmanın yenidən ön plana çıxmasına səbəb olub. Bu yanaşma isə regional lider, etibarlı tərəfdaş və müstəqil siyasət yürüdən Azərbaycanla münasibətlərin güclənməsi üçün real zəmin yaradır. Tramp administrasiyasının ideoloji ritorikadan fərqli olaraq milli maraqlara söykənən xarici siyasət kursu Bakı-Vaşinqton xəttində uzun müddət kölgədə qalan potensialın üzə çıxmasına imkan verir. Enerji təhlükəsizliyi, regional sabitlik, nəqliyyat-logistika dəhlizləri və terrorla mübarizə kimi sahələrdə Azərbaycanın oynadığı mühüm rol ABŞ üçün getdikcə daha aydın görünür. Eyni zamanda postmünaqişə dövründə Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın sülh təşəbbüsləri və konstruktiv mövqeyi Vaşinqtonun regional maraqları ilə üst-üstə düşür. Bu mənada Trampın ikinci prezidentliyi dövrü ABŞ-Azərbaycan münasibətlərinin sadəcə davamı deyil, keyfiyyətcə yeni mərhələsi kimi qiymətləndirilir. Qarşılıqlı maraqlara əsaslanan, bərabərhüquqlu və praqmatik əməkdaşlıq modeli ikitərəfli əlaqələrin gələcək trayektoriyasını müəyyənləşdirən əsas faktor kimi çıxış edir.



### 8 avqust görüşü: münasibətlərdə yeni mərhələ

2025-ci ilin 8 avqustunda Vaşinqtonda keçirilmiş yüksək səviyyəli görüş regionun və bütövlükdə dünyanın siyasi gündəliyində tarixi hadisə kimi qiymətləndirilir. ABŞ Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında aparılmış müzakirələr, imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar yalnız Cənubi Qafqazda yeni reallıqların təsbit olunmasına xidmət etmir, eyni zamanda, qlobal təhlükəsizlik, inteqrasiya və tərəqqi üçün də mühüm nəticələr vəd edir. Ən əsası, bu sənədlər Azərbaycanın strateji mövqelərinin gücləndirilməsinə, Azərbaycan-ABŞ tərəfdaşlığının yeni mərhələyə yüksəlməsinə və regional əməkdaşlığın daha dayanıqlı əsaslarda qurulmasına təkan verir.

Bəli, münasibətlərin normallaşması Cənubi Qafqaz regionu üçün həm geostrateji, həm geoiqtisadi, həm də geosiyasi mənada yeni üfiqlər açır. Bu isə qlobal səviyyədə vacib nəticələr vəd edir. Nəzərə alsaq ki, artıq bir neçə ildir dünyada yeni siyasi nizamın formalaşdırılması istiqamətində aktiv prosesləri müşahidə edirik, Cənubi Qafqazda əbədi sülhün yaranması qütblərarası iqtisadi münasibətlərdə yeni bir cığır aça bilər. Şərq-Qərb kontenti üzrə ticari münasibətlərin ən vacib geocoğrafi nöqtəsi sayılan Cənubi Qafqazın sabit və inkişafa yönəlik üstünlükləri göz önünə çıxaraq yeni dividendlər yaradacaq. Ümumiyyətlə, son dövrlərdə Azərbaycanın apardığı effektiv siyasi xətt bütün dünyada yüksək dəyərləndirilir. Bu sferada ABŞ-Azərbaycan münasibətləri diqqət çəkir -yeni bir trayektoriya qazanan ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir. Rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə, irəliyə daşımaqda maraqlı olduğunu sübut edir.

### Artıq rifah və sülh hökm sürür

ABŞ Prezidenti Donald Tramp "Truth" sosial mediasında Azərbaycanla strateji tərəfdaşlığı möhkəmləndirəcəklərini bildirib. "Keçən ilin avqust ayında imzaladığımız Sülh Sazişinə əməl etdiklərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistan Baş naziri Nikol Paşinyana təşəkkür etmək istəyirəm", - deyə qeyd edən ABŞ Prezidenti bildirib ki, bu pis müharibə onun başa vurduğu 8 müharibədən biri idi. Artıq rifah və sülh hökm sürür. "Biz Azərbaycanla strateji tərəfdaşlığımızı möhkəmləndirəcəyik. Ermənistanla sülhməramlı nüvə əməkdaşlığı üçün saziş imzalayacağıq. Böyük yarımkeçirici istehsalçılarımız üçün müqavilələrə imza atacağıq. ABŞ-da istehsal olunmuş müdafiə avadanlıqlarını, o cümlədən gödəkçə, qayıqlar və sairi Azərbaycana satacağıq", - deyə Tramp vurğulayıb.



### Davamlı yaxınlaşmalar, siyasi dialoqun inkişafı...

Vurğulandığı kimi, münasibətlər sisteminin yeni mərhələsində bir sıra amillər diqqəti cəlb edir - xüsusilə, Azərbaycan-ABŞ münasibətlərində artıq davamlı yaxınlaşmalar, siyasi dialoqun inişafı nəzərə çarpır. Prezident Trampın son bir ildə artıq bir neçə dəfə Prezident İlham Əliyevlə görüşməsi, fərqli kontekstlərdə müzakirələrin aparılması, Cənubi Qafqazın yeni gələcəyinin formalaşdırılması istiqamətində Azərbaycanın irəli sürdüyü strateji yol xəritəsinin dəstəklənməsi, sülhün və sabitliyin qorunmasına xidmət edən yaxınlaşmaların təqdir olunması göstərir ki, Bakı-Vaşinqton əlaqələri sağlam və dinamik xarakter daşıyır. Azərbaycanı hər zaman özünün strateji tərəfdaşı kimi xarakterizə edən rəsmi Vaşinqton əməkdaşlığın çoxşaxəli olmasında maraqlı olduğunu ortaya qoyur.

Azərbaycanın sülh təşəbbüsləri bütövlükdə Cənubi Qafqaz, eləcə də Mərkəzi Asiya və başqa yaxın coğrafiyalar üçün mühüm inkişaf perspektivləri yaradır. Bu mənada aparılan siyasət, atılan addımlar beynəlxalq aləm tərəfindən ciddi izlənir - Zəngəzur (TRIPP) dəhlizi ideyası, Orta Dəhlizin dirçəldilməsi, enerji və yaşıl gündəlik layihələri və digər məqamlar Azərbaycanın sülh təşəbbüslərinin çoxşaxəli olduğunu ortaya qoyur.

ABŞ - Azərbaycan münasibətlərində beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində yaxın əməkdaşlıq xüsusi bir xəttlə keçir. Qarşılıqlı etimad və maraqlar əsasında qurulan əlaqələr hər iki tərəfin mənafeyinə cavab verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına da töhfədir. Azərbaycan Prezidentinin yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalaması da təsadüfi deyil - bakı bu gün qlobal təhlükəsizliyin təminatında Vaşinqtonun ən yaxın strateji tərəfdaşlarından biridir.

Paralel olaraq "Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması" Anlaşma Memorandumu iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatır - bu sənədin imzalanması Bakı-Vaşinqton əlaqələrnid mühüm ştrixləri oratya çıxarır. Artıq iki iclası keçirilən işçi qrupunun əlaqələri Azərbaycan ilə ABŞ arasında əlaqələrin yaxın tərəfdaşlıq səviyyəsinə qalxdığını göstərir -ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet sayır. Eyni zamanda, iki ölkə arasındakı əməkdaşlıq institusional çərçivəyə salınır - başqa sözlə, münasibətlərin inkişaf imkanları artıq siyasi bəyanatlarla deyil, konkret planlar, yol xəritələri və hüquqi mexanizmlərlə idarə olunacaq.

### ABŞ vitse-prezidenti Bakıya gəlir

Yeri gəlmişkən, ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens fevralda Azərbaycan və Ermənistana səfər edəcək. Bu barədə də ABŞ Prezidenti Donald Tramp "Truth" sosial mediasında yazıb. O bildirib ki, səfərin məqsədi sülh səylərini inkişaf etdirmək və TRIPP marşrutunu irəli aparmaqdır.

Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması birinci növbədə mühüm geocoğrafi situasiya yaradacaq. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki dəhlizin Şimal-Cənub xətti ilə perpendikulyar şəkildə kəsişməsi ikinci xətt üzərində olan dövlətlərin də maraq dairəsini buraya istiqamətləndirir. Zəngəzur dəhlizinin (TRIPP) ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.

Qeyd edək ki, 2012-ci ildə ABŞ Dövlət katibi Hillari Klinton Azərbaycana rəsmi səfərə gəlib. Bu səfər 4-6 iyun 2012-ci il tarixlərində baş tutub və indiyə qədər ABŞ-dan Azərbaycana ən yüksək ranqlı rəsmi səfərlərdən biri sayılır.

2024-cü ilin iyunun 28-də isə Prezident İlham Əliyev Bakıda səfərdə olan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul edib. Xatırladaq ki, həmin vaxt dövlət katibi Antoni Blinken köməkçisinin Bakıya səfəri üçün prezident İlham Əliyevdən xahiş etmişdi....

***P.İSMAYILOV***

## "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin Əsasnaməsi təsdiqlənib

Prezident İlham Əliyev "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (RDMİS) Əsasnaməsi təsdiq edilməsi haqqında Fərman imzalayıb. Sənədə əsasən, dövlət maliyyəsinin idarə edilməsində rəqəmsallaşmanın genişləndirilməsi istiqamətində yeni tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Sənəd sistemin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən etməklə dövlət maliyyəsinin daha səmərəli, şəffaf və çevik idarə olunmasını təmin etmək, maliyyə proseslərində rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək məqsədi daşıyır. Yeni informasiya sistemi dövlət maliyyəsinin planlaşdırılması, icrası, nəzarəti və təhlili sahələrində vahid rəqəmsal mühitin formalaşdırılmasını hədəfləyir.

# YAP Sədrinin müavini Tahir Budaqov Vyetnam Kommunist Partiyasının Baş katibi ilə görüşüb








Yanvarın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində Vyetnam Kommunist Partiyasının Baş katibi To Lam ilə görüşüb.

Görüşdə Azərbaycan-Vyetnam münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanaraq xalqlarımız arasındakı dostluq əlaqələrinin hələ SSRİ dönəmində formalaşdığı, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyət daşıdığı bildirilib.

Baş katib To Lam ötən ilin may ayında ölkəmizə səfərini xatırladıb və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi də Vyetnamda səbirsizliklə gözlədiklərini deyib. O, strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunması ilə Azərbaycan-Vyetnam münasibətlərinin yeni inkişaf mərhələsinə yüksəldiyini deyib.



YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyasının 14-cü qurultayının uğurla baş tutması və yenidən partiyanın Mərkəzi Komitəsinin Baş katibi seçilməsi münasibətilə To Lamı Yeni Azərbaycan Partiyası adından təbrik edib. O, Azərbaycan ilə Vyetnam arasında münasibətlərin inkişafında liderlər arasında şəxsi dostluğun böyük rol oynadığını bildirərək müxtəlif sahələrdə, o cümlədən statistika qurumları arasında əməkdaşlığın genişləndirilməsinin diqqət mərkəzində olduğunu deyib.

Görüş zamanı hakim siyasi partiyalar arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti vurğulanaraq 2023-cü ildə imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin müvəffəqiyyətlə həyata keçirildiyi qeyd olunub.

Səfər çərçivəsində Tahir Budaqov Vyetnam xarici işlər nazirinin müavini Nquyen Minh Vu ilə də görüşüb. Görüşdə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# İnsan qardaşlığına xidmət edən sülh siyasəti

Təkcə son dövrlərdə dünyada yaşanan bir sıra kataklizmlər milli dövlətlər üçün çox ağır sınaqlar olub. O cümlədən bəzi dövlətlər müharibələrin, iqtisadi böhranların, pandemiyanın gətirdiyi çətinliklərə dözə bilməyiblər və bir sıra hallarda xarici güclərdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşüblər.

Azərbaycan bu kimi fəsadlardan yan ötən dövlətdir. Bunun təməlində dayanan əsas amillərdən biri isə Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasətdir. Bu siyasət Azərbaycanda milli gücün konsolidasiyasını təmin edib və beynəlxalq səviyyədə ölkəmizə böyük nüfuz qazandırıb. Təsadüfi deyildir ki, Azərbaycan Dini Konfessiyalarının Məşvərət Şurasından Prezident İlham Əliyevə ünvanlanan məktubda dövlətimizin başçısının bütün dünyada qəbul olunan liderlik keyfiyyətlərinə, Onun böyük səyləri sayəsində regionsa sülhün bərqərar olmasına, respublikamızda nümunəvi toleratlıq mühitinin qorunmmasına xüsusi diqqət çəkilib və aparılan siyasətin yüksək vətəndaş məmnunluğu yaratdığı bildilib.



**Azərbaycanın sülh gündəliyi - dünya üçün yeni nümunə**

Ölkəmizdəki müxtəlif konfessiyaları təmsil edən din xadimlərinin bəhs olunan məktubunda Azərbaycan Prezidenti İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsindən xüsusi məmnunluq ifadə olunub. "Zati-alilərinizin rəhbərliyi ilə qazanılmış böyük Qarabağ Zəfərinin ardınca Azərbaycan xalqına qlobal siyasi-diplomatik müstəvidə tarixi əhəmiyyətli qələbələr və nüfuzlu beynəlxalq mükafatların qürurunu bəxş etməkdəsiniz. Sizin dünya miqyasında insan qardaşlığına xidmət edən ideya və təşəbbüsləriniz Azərbaycan dövlətinə beynəlxalq müstəvidə yenilməzlik, etimad və ehtiram qazandırır", - deyə məktubda vurğulanır.

Davos Ümumdünya iqtisadi Forumu artıq tarixdə qalsa da, tədbirin təəssüratları uzun müddət yaddaşlardan silinməyəcək. Forumun ən böyük təəssüratlarından biri isə heç şübhəsiz ki, burada Azərbaycan Prezidentinə göstərilən xüsusi ehtiram oldu. Azərbaycan əhali sayına və ərazisinə görə kiçik dövlətdir. Ancaq Prezident İlham Əliyevin liderlik keyfiyyətləri ölkəmizin beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Bunu biz Davosda dövlətimizin başçısının keçirdiyi görüşlərdə bir daha müşahidə etdik. Həmin görüşlərdə aparılan müzakirələrin məzmunundan, ifadə olunan fikirlərdən aydın şəkildə görünür ki, dünya liderləri, beynəlxalq səviyyədə tanınan ictimai-siyasi xadimlər, biznes dairələrinin nümayəndələri istisnasız olaraq respublikamıza, Prezident İlham Əliyevə böyük rəğbət bəsləyirlər və Azərbaycanla əməkdaşlığı bundan sonra daha da dərinləşdirməyə maraq göstərirlər.

Dünyada Azərbaycana marağın artması isə heç də təsadüfi deyil. Bu gün iqtisadi müstəqilliyini tam təmin edən Azərbaycan həmçinin heç bir güc mərkəzindən asılı olmayan siyasi qərarlar qəbul edir və ümummilli hədəflərinə doğru inamlı addımlar atır. Din xadimlərinin məktubunda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətdə iki mühüm məqama diqqət çəkilir. Bunlardan biri 44 günlük müharibədə qazanılan böyük Qələbə, digəri isə qalib dövlətin sülh gündəliyidir. Məktubda bildirldiyi kimi, Prezident İlham Əliyevin əsas memarı olduğu tarixi qələbələrinmiz Azərbaycan xalqına ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsinin sevincini və qürurunu yaşadıb. Dünya tarixindən bəlli olduğu kimi, müharibələrin qalibi olan dövlətlər adətən məğlub ölkələrə şərtlər diktə edirlər. Ancaq qalib Azərbaycvan müharibə başa çatdıqdan sonra heç bir ilkin şərt irəli sürmədən sülh təşəbbüsündən çıxış etdi və sonrakı mərhələdə böyük səylər ortaya qoymaqla tənzimləmə prosesinin irəliləməsinə nail oldu.
Bu səylər nəticə verdi. Ötən il avqustun 8-də Vaşinqtonda, dünyanın bir nömrəli ofisində Azərbaycan, ABŞ, Ermənistan liderlərinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri yekun sülh sazişini imzaladılar. Bununla da Prezident İlham Əliyevin təşəbbüsü ilə başlayan sülh prosesində mühüm addım atılmış oldu.



Azərbaycanın təqdim etdiyi model dünya üçün yeni bir nümunədir və beynəlxalq birlik tərəfindən böyük təqdirlə qarşılanır. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi bunun əyani təsdiqidir. Bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mükafatın təntənəli təqdimat mərasiminin keçiriləcək. Həmin tədbirdə fəxri qonaq qismində iştirak üçün dəvət məktubu Prezident İlham Əliyevə təqdim edilib.

Qeyd edək ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunub və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edir. Dövlətimizin başçısının bu mükafata layiq görülməsi, eyni zamanda, Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibin, Roma Papası XIV Leonun və münsiflər heyətinin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirilir. "Sülh, sabitlik, qarşılıqlı anlaşma olmadan tərəqqi, rifah mümkün deyil və Azərbaycanın siyasi lideri olaraq Cənabınızın bu istiqamətdə fəaliyyəti ən xoş sözlərə, ən yüksək mükafatlara layiqdir. Zati-alilərinizin dünyanın sülh gündəmində ön sırada olmağı - Sülh Şurasında təsisçi qismində iştirakı Uca Yaradana xoş gedən ideallar naminə dəyərli fəaliyyətinizin daha bir parlaq əməli nümunəsidir. Zati-alilərinizi belə bir mötəbər qlobal müstəvidə təsisçi qismində görmək bizi qürurlandırır, Azərbaycan xalqının ayrılmaz hissəsi olan dindarlarda rəğbət və fəxarət doğurur", - deyə məktubda vurğulanır.

**Dinlərarası əməkdaşlıq və multikulturalizm modeli**

Azərbaycanı fərqləndirən digər bir mühüm cəhət isə ölkəmizin nümunəvi tolerantlıq mühitinə malik olmasıdır. Hazırda sivilizasiyanın yüksək mərhələsinə çatan bəşəriyyət eyni zamanda bir sıra ciddi sınaqlarla üzləşib. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya peredmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan qoca qitədə bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, İslamafobiya həyat normasına çevrilir.

Dünyadakı belə kədərli mənzərə ilə müqayisədə respublikamızın reallıqları tamam fərqli rakrusdan diqqət çəkir. Başqa dinlərə, mədəniyyətlərə sayğılı münasibət bəslənilməsi Azərbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respulikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əmin-amanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır. "Fəxarət duyuruq ki, Azərbaycanın nümunəvi dinlərarası əməkdaşlıq, multikulturalizm və məzhəblərarası anlaşma modeli dünya miqyasında təqdir olunur və bu, Zati-alilərinizin müasir, müdrik dövlətçilik siyasətinin bəhrələridir", - deyə dini konfessiyaların nümayəndələri bildiriblər.

*Mübariz FEYİZLİ*

# Asiya Parlament Assambleyasının sessiyasında

Yanvarın 26-da Bəhreyndə Asiya Parlament Assambleyasının (APA) 16-cı plenar sessiyası keçirilib. Bu ölkədə rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının sessiyasında çıxış edib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova çıxışında 2024-cü ilin fevralında Bakıda keçirilmiş 14-cü plenar sessiyada Azərbaycan Milli Məclisinin APA-ya sədrliyi öz üzərinə götürdüyünü xatırladıb. O bildirib ki, Azərbaycanın sədrliyi dövründə ölkəmiz Assambleya çərçivəsində əməkdaşlığın və dialoqun dərinləşdirilməsi istiqamətində fəal səylər göstərib. Bu, Azərbaycanın APA-ya mühüm parlamentlərarası platforma kimi verdiyi əhəmiyyətin göstəricisidir. Sahibə Qafarova vurğulayıb ki, bu il - APA-nın yaradılmasının 20-ci ildönümünün qeyd edildiyi bir məqamda Assambleya artıq konstruktiv dialoq və həmrəylik üçün mühüm çoxtərəfli təsisata çevrilib.

Son iki ildə görülən işlər barədə məlumat verən S.Qafarova Azərbaycanın sədrliyi dövründə təşkilatın tərkibinin genişləndiyini qeyd edib. Parlamentin sədri qeyd edib ki, dünyadakı mövcud çətinliklər və münaqişələr fonunda mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi artıq seçim deyil, bir zərurətdir. Çünki qlobal sülhə və rifaha nail olmaq, ilk növbədə, xalqlar arasında etimad və qarşılıqlı anlaşmanın qurulmasından keçir. Bu mənada Asiya regionu zəngin irsi ilə böyük potensiala malikdir. Regionun müxtəlifliyi ölkələrimiz arasında bölücü xətt kimi deyil, bizi daha da yaxınlaşdıran və dialoqumuzu məzmunlu edən dəyər kimi qəbul edilməlidir.

APA-da sədrlik rəsmi olaraq Bəhreyn Krallığının Nümayəndələr Şurasına təhvil verilib.

*Nardar BAYRAMLI*

# Azərbaycan ikinci neft bumunu yaşayacaq




## Prezident İlham Əliyev: Neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlarımız var



Prezident İlham Əliyev bu günlərdə Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırarkən ölkəmizin perspektiv neft hasilatı ilə bağlı nikbin fikirlər bildirib. Ölkədə "neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlarımız var" deyən dövlətimizin başçısı vurğulayıb: "Əgər beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr versə, Azərbaycanda ikinci mühüm neft bumunu yaşaya biləcəyimizə dair çox haqlı ümidlərimiz var".

**Müstəqil Azərbaycanın uğurlu neft strategiyası**

Sirr deyil ki, müstəqil Azərbaycanın iqtisadi siyasətinin ana xəttini məhz neft strategiyası təşkil edir. Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı və əsasını qoyduğu neft strategiyasının sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsində müstəsna rol oynayıb. Bu barədə bəhs edərkən beynəlxalq tərəfdaşlarla imzalanan iki müqavilənin önəmini xüsusi qeyd edə bilərik. Uzaqgörən siyasətçi Heydər Əliyevin vəziyyəti düzgün qiymətləndirməsi və çox böyük səyləri hesabına 1994-cü il sentyabrın 20-də Bakıda transmilli neft şirkətinin iştirakı ilə Xəzərdəki "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağının birgə işlənməsinə dair "Əsrin müqaviləsi" adını alan beynəlxalq kontrakt imzalanıb. Bununla da Xəzər ölkəmizin hərtərəfli inkişafını şərtləndirən xoşməramlı beynəlxalq əməkdaşlıq mərkəzinə çevrilib.

"Əsrin müqaviləsi"nin imzalanması ilə neftçıxarma tariximizdə yeni səhifə açılıb. Kontraktın texniki parametrləri kifayət qədər genişdir. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi"ndə dünyanın 7 ölkəsini təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak edib. İlkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1,072 milyard ton həcmində müəyyən edilib. "Əsrin müqaviləsi" sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə daha 30-dan çox sazişin imzalanması üçün yol açıb.

İkinci mühüm neft müqaviləsinin imzalanması isə Prezident İlham Əliyevin səyləri sayəsində mümkün olub. 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması ilə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzaldılıb. Yeni Sazişin imzalanması ilə böyük ehtiyatlara malik "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsində yeni mərhələ başlayıb. Bəhs olunan yeni Sazişdə də Azərbaycanın milli maraqları maksimum dərəcədə nəzərə alınıb. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faiz qaldırılıb, razılaşmaya əsasən, tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəməyi öz öhdələrinə götürüblər. 2024-cü il aprelin 16-da "Azəri Mərkəzi Şərqi" platformasında ilkin neftin hasilatına başlanıb. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar bloku yeni istismar mərhələsinə qədəm qoyub.



Hazırda hasil edilən Azərbaycan nefti həm ölkənin daxili tələbatının ödənilməsinə, həm də ixraca yönəldilir. Ötən il respublikamızda 27,7 milyon ton neft (qaz kondensatı ilə birlikdə) hasil edilib. Hasilatın 16,2 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 3,8 milyon tonu "Şahdəniz"in, 0,6 milyon tonu "Abşeron" yatağının, 7,1 milyon tonu isə SOCAR-ın payına düşüb. İl ərzində 23,1 milyon ton neft (qaz kondensatı ilə birlikdə) ixrac olunub.

**AÇG-də dərinsulu quyulara sualtı müdaxilə əməliyyatları**

Azərbaycanda neft hasilatını sabitləşdirmək və artırmaq, həmçinin yatraqların istismar müddətini uzatmaq məqsədilə bir sıra planların reallaşdırılması nəzərdə tutulur. O cümlədən "Azəri-Çıraq-Günəşli" yatağının "Dərinsulu Günəşli" ərazisində ayrı-ayrı quyularda sualtı müdaxilə əməliyyatlarının həyata keçirilməsi layihəsi hazırlanıb. AÇG yatağının işlənməsi layihəsinin operatoru "BP-Azerbaijan" şirkətindən məlumat verilib ki, bu işlər üçün qurumun Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə (QDYM) texnologiyası tətbiq olunacaq. "Blue Ocean" dikborusuz müdaxilə sistemi (BORİS) kimi tanınan bu texnologiya "Oceaneering International" şirkətinin sualtı mexaniki tros vasitəsilə quyuya müdaxilə sistemidir. Bu innovativ yanaşma təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan verəcək və bununla da yatağın sonrakı potensialının üzə çıxarılmasına kömək edəcək. "Xankəndi" sualtı tikinti gəmisi bu əməliyyatlar üçün ən uyğun texniki baza kimi seçilib.

BP şirkəti bu proqramın təhlükəsiz və səmərəli icrası üçün artıq iki əsas müqavilə imzalayıb. Bunlardan birincisi, QDYM xidmətləri üçün "Oceaneering International" şirkəti ilə çoxmilyonluq müqavilədir. Bu müqaviləyə BORİS sisteminin gəmidə yerləşdirilməsi, yığılması və sınaqdan keçirilməsi, həmçinin layihənin idarə olunması, mühəndislik işləri, sistemlərin inteqrasiyası və BORİS-in tətbiqi üçün tələb olunan avadanlıqların, materialların və inşa işlərinin təmin edilməsi daxildir.

Digər müqavilə isə QYM (Quyuya Yüngül Müdaxilə) xidmətləri üçün SLB şirkəti ilə imzalanıb. Böyük maliyyə tutumu olan bu müqaviləyə ağır yüklərin qaldırılması işlərini ləğv etmək və "qırmızı zona"nın idarə olunmasını sadələşdirmək üçün kombinə edilmiş troslu/təkxətli (Combo) qurğunun təmin edilməsi, dövr etmə və təzyiq sınaqları üçün yüksək təzyiqli nasos işlərinə qadir təzyiq/maye boşaltma avadanlığı paketi, eləcə də bu işlər üçün tələb olunan çoxprofilli işçi heyətlərin təmin edilməsi daxildir. Proqram çərçivəsində dəniz əməliyyatlarının 2026-cı ilin sonunadək bitəcəyi gözlənilir.

**Avropa yenə də gözləmə mövqeyi tutur**

Azərbaycan enerji siyasətini ədalət prinsipinə əsaslanmaqla həyata keçirir. Başqa sözlə desək, ölkəmiz indiyədək bütün müqavilə öhdəliklərinə yüksək səviyyədə əməl edib və resurslara malik olmasından heç vaxt istehlakçılara qarşı təzyiq vasitəsi kimi istifadə etməyib.

Azərbaycanın ədalətli enerji siyasətindən böyük dərəcədə Avropa bəhrələnir. Ancaq təəssüf doğuran haldır ki, Avropa İttifaqı (Aİ) Azərbaycanın neft hasilatını artırmaq planlarında yer almağa tələsmir. Prezident İlham Əliyev bəhs olunan tədbirdə sualları cavablandırarkən bu məsələyə də ayrıca diqqət çəkib. Dövlətimizin başçısı təəssüf hissi ilə bildirib ki, nə faydalı qazıntı enerji növlərinə, nə də bərpaolunan enerjiyə biz Avropadan əhəmiyyətli sərmayə qoyuluşunu görmürük. Bərpaolunan enerji sahəsində respublikamızın əsas tərəfdaşlarının BƏƏ, Səudiyyə Ərəbistanı, Çin, Böyük Britaniya və Azərbaycandan olan şirkətlər olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Faydalı qazıntı növlərinə gəldikdə, ənənəvi olaraq ABŞ və Britaniya şirkətləri bu sahəyə maraq göstərib. bp və "AMOCO" şirkətlərinin birləşməsindən sonra bu, artıq Britaniya şirkəti hesab olunur. Yəni çox az Avropa şirkəti var - biri Fransa şirkətidir, digəri isə başqa ölkədən. Səmimi desək, biz Avropa şirkətlərindən sərmayə qoyuluşu ilə bağlı böyük maraq görmürük".

*Mübariz ABDULLAYEV*

# Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

## Bakıda keçirilən Azərbaycan-İsrail Biznes Forumunda yeni tərəfdaşlıq imkanları müzakirə olunub

**Azərbaycan və İsrail sabitliyin tərəfdarıdır. Diplomatik əlaqələr dostluğumuzu daha da gücləndirib və bu, hər iki tərəf üçün faydalıdır. Bu barədə İsrailin xarici işlər naziri Gideon Saar azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə keçirilən brifinqdə söyləyib. Qeyd edib ki, Azərbaycanda yəhudilər həmişə sülh şəraitində yaşayıblar və ikitərəfli münasibətlərin inkişafına töhfə verirlər. O, bildirib ki, ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlər inkişaf edərək daha da möhkəmlənməkdədir. İqtisadi əlaqələrin artmasımda Hökumətlərarası Birgə Komissiyanın iclasları müsbət rol oynamaqdadır. Hazırda 124 İsrail şirkəti Azərbaycanda fəal iş və layihələr həyata keçirir. Ənənəvi olaraq enerji sahəsi böyük əməkdaşlıq istiqamətlərindən biri və birincisidir. 2025-ci ildə ilk dəfə əlaqələr enerji resurslarından kənara çıxıb, SOCAR ilk dəfə İsrailin Aralıq dənizi sahillərində həyata keçirilən qaz layihəsində 10 faizlik pay alıb və bu enerji sahəsində yeni əməkdaşlığa dərin zəmin yaradıb. Bu, etimadın, münasibətlərin irəliyə aparılmasının nümunəsidir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov isə bildirib ki, Azərbaycan-İsrail münasibətləri ilbəil müsbət istiqamətdə inkişaf edir. Ölkələrimiz arasındakı əlaqələr müxtəlif sahələrdə strateji əhəmiyyət daşıyır. Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr və strateji dialoq formatı xüsusi önəm daşıyır, siyasi münasibətlərdəki möhkəm dostluq iqtisadi sahədə əməkdaşlığın genişlənməsini də təmin edir.**



### Birgə sərmayə qoyuluşları artır

Azərbaycan və İsrail biznes icması və iqtisadi strukturları arasında intensivləşən münasibətlər iqtisadi-ticari, investisiyalar üçün yeni imkanlar açır. Həmçinin, davamlı xarakter alan Biznes-Forumlar sahibkarlar arasında təşəbbüskarlığı daha da artırır. Həmçinin, İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası iki ölkə arasında mədəni, elmi, iqtisadi əməkdaşlığın genişlənməsində böyük rol oynayır.

Bakıda keçirilən Biznes forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan və İsrail siyasi və institusional səviyyələrdə uzunmüddətli əməkdaşlıqla dəstəklənən möhkəm siyasi etimad və konstruktiv dialoq təməlinə malikdir. Yüksək səviyyəli əməkdaşlıq ikitərəfli münasibətlərin möhkəmləndirilməsində mühüm rol oynayır: "Azərbaycan və İsrail arasında əməkdaşlıq investisiyaların təşviqi və qarşılıqlı qorunması, habelə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərlə dəstəklənir. Bunlar işgüzar əlaqələrin genişləndirilməsi üçün möhkəm hüquqi baza yaradır. Hər iki ölkə genişspektrli sektorlar üzrə real nəticələr verən güclü və praqmatik tərəfdaşlıq qurub. Məsələn, "Azərbaycan İnvestisiya Şirkəti" ASC və İsrailin "OurCrowd" şirkəti arasında imzalanmış və icra olunan strateji əməkdaşlıq sazişi vasitəsilə Azərbaycan tərəfi enerji, səhiyyə, kiber-təhlükəsizlik, aqroqida və təhsil texnologiyalarına diqqət yetirməklə texnologiya və biznes əlaqələrimizin genişləndirilməsinə yönəlmiş investisiyalar həyata keçirir.

M.Cabbarov vurğulayıb ki, Azərbaycan ilə İsrail arasında əməkdaşlığın vacib sahələrindən biri enerji sektorudur. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), bp və "NewMed" ilə tərəfdaşlıqda İsrailin müstəsna iqtisadi zonasında qaz kəşfiyyatı üçün lisenziyalar alıb və kəşfiyyat mərhələsində operator kimi çıxış edir. Eyni zamanda, "Tamar" qaz yatağının 10 faizlik payının əldə edilməsi bu tərəfdaşlığın güclənməsini əks etdirir. Əczaçılıq sektorunda İsrail şirkəti Azərbaycanda layihə həyata keçirilməsini davam etdirir.




Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə israilli kommersiya qurumlarına geniş sərmayə imkanları yaradılıb. Eləcə də ölkəmizdə İsrail investisiyalı 130 kommersiya qurumu fəaliyyət göstərir.Qarşılıqlı investisiyaların dəyəri təxminən 600 milyon dollardır. İsrail qarşılıqlı sərmayələri təşviq edən münbit iqlimi dəyərləndirərək Azərbaycana investisiya yatırımlarını artırmaq istəyir.




Münasibətlər turizm sahəsində də inkişaf edir. 2025-ci ildə İsraildən Azərbaycana gələn turistlərin sayı 2024-cü illə müqayisədə 2 dəfədən çox artıb və 60 min israilli turist Azərbaycana səfər edib. Tərəflər qarşılıqlı uçuşların sayını daha da artırmağı nəzərdə tutur.

### Biznes təşəbbüslərində ortaq sadiqlik

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev isə bildirib ki, Azərbaycan-İsrail Biznes forumu tərəfdaşlığımızı real iqtisadi nəticələrə çevirmək istiqamətində ortaq sadiqliyi nümayiş etdirir.

Qeyd olunduğuna görə, 2025-ci ildə Azərbaycan ilə İsrail arasında ticarət dövriyyəsi 78 milyon dollar olub. Azərbaycanın İsrailə qeyri-neft ixracı 27 faiz artaraq 2024-cü ilin eyni dövründəki 16 milyon dollardan təxminən 20,3 milyon dollaradək artıb.

Y. Abdullayev əlavə edib ki, AZPROMO Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığının gücləndirilməsində fəal rol oynamağı hədəfləyir. "Biz "Bir pəncərə" prinsipi ilə işləyirik və xarici investorlara ilk sorğudan tutmuş layihənin tam icrasına qədər tam dəstək veririk. Eyni zamanda, biz Azərbaycanın ixracını xaricdə təşviq edirik. İxrac missiyaları, beynəlxalq sərgilərdə birgə iştirak, bazar araşdırması və sertifikatlaşdırma dəstəyi daxil olmaqla dəstək mexanizmləri vasitəsilə yerli istehsalçılara yeni bazarlara çıxmağa kömək edirik".

### Biznes assosiasiyaları arasında Anlaşma Memorandumu

Tərəflər arasında ötən illərdə imzalanmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq sazişi, gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" konvensiya, iqtisadi sahəyə dair anlaşma memorandumları ticari-investisya dinamikasını artırıb. Son illərdə ticari mübadilələrin həcmləri artaraq 1 milyard dollara yaxınlaşıb.

Qeyd edək ki, Bakıda keçirilən Biznes Forum çərçivəsində Azərbaycanın Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə İsrailin İstehsalçılar Assosiasiyası (MAI) arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Azərbaycan tərəfdən ASK prezidenti Məmməd Musayev, İsrail tərəfdən isə MAI-ın sədrinin müavini Natanel Hayman imzalayıblar. Sənədə əsasən, iki ölkə arasında biznes missiyalarının səfərlərinin təşkili, qarşılıqlı investisiyaların yatırılması ilə bağlı araşdırmalar, B2B görüşlərin keçirilməsi, özəl sektor arasında fikir mübadiləsinin həyata keçirilməsi və sair əməkdaşlıq istiqamətləri nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# Davamlı inkişafın göstəriciləri

## Ötən il ÜDM istehsalı 130 milyard manata yaxınlaşıb



2025-ci ildə ölkəmizdə 129,1 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,4 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 2,7 faiz artmaqla ümumi inkişafı təmin edib. Belə ki, ÜDM istehsalının 33 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,5 faizi tikinti, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi informasiya və rabitə sahələrinin, 21,7 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 12602,2 manata bərabər olub.

**Sənaye istehsalı 63 milyard manatı ötüb**

2025-ci ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ildə 63,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Neft-qaz sektorunda məhsul istehsalı 2 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 5,5 faiz artıb. Sənaye məhsulunun 59,6 faizi mədənçıxarma sektorunda, 33,9 faizi emal sektorunda, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Mədənçıxarma sektorunda neft hasilatının 4,8 faiz azalmasına baxmayaraq qaz hasilatı isə 0,7 faiz artıb.

Ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərinin artmasında sənaye parklarının rolu da xüsusi əhəmiyyət daşıyır. Ötən il sənaye zonalarında 3 milyard manatdan çox məhsul əldə edilib. Sənaye zonaları üzrə məhsul satışı 2024-cü illə müqayisədə təxminən 28 faiz, ixrac isə 20 faizdən çox artıb.

Ümumilikdə, 2015-ci ildən 2025-ci il də daxil olmaqla, sənaye zonalarında 18 milyard manatdan çox məhsul satışı həyata keçirilib, onun 7 milyard manata yaxını ixrac edilib. Sənaye zonalarında istehsal edilən polimerlər, karbamid, polad və polietilen borular, tütün məmulatları, divar kağızları, müxtəlif təyinatlı ayaqqabılar, sürtkü yağları, ferroərintilər, müxtəlif növdə kabellər, şüşə lövhələr, tikinti kimyəviləri, ipliklər, elektrod və s. məhsullar ABŞ, Kanada, Çin, Hindistan, İngiltərə, Almaniya, BƏƏ, Yunanıstan, İsrail, Avstriya, Norveç, Çexiya, İspaniya, Belçika və s. ölkələr daxil olmaqla, ümumilikdə, dünyanın 70-dən artıq ölkəsinə "Made In Azerbaijan" brendi adı altında ixrac olunub.

**İnvestisiya qoyuluşları 22 milyard manata yaxınlaşıb**




Ötən il iqtisadiyyata 21,2 milyard manat məbləğində investisiya yönəldilib. Kapital yatırımlarının 11 milyard manata yaxını və ya 51,7 faizi məhsul istehsalı sahələrinə, 7,2 milyard manatı (33,8 faizi) xidmət sahələrinə, 3 milyard manatı (14,5 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 17 milyard manatını və ya 80,2 faizini daxili investisiyalar təşkil edib. Sərmayələrin 16 milyard manatdan çoxu və ya 75,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

**İllik inflyasiya 5,6 faiz olub**

2025-ci ilin dekabr ayında istehlak qiymətləri indeksi 2024-cü ilin dekabr ayına nisbətən 5,2 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,4 faiz, qeyri-qida məhsulları üzrə 2,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz təşkil edib. Əhalinin gəlirləri 10 faiz, orta aylıq əmək haqqı 9,2 faiz artıb. Bu dövrdə iqtisadiyyatda muzdla çalışan işçilərin sayı 1 milyon 797,4 min nəfər olub ki, onların 869 min nəfəri dövlət sektorunda, 928,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Ötən il əhalinin banklardakı əmanətlərinin artımı isə qeyd edilən müddətdə 15 faiz artaraq depozit portfeli 43 milyard 281,2 milyon manat təşkil edib. Əmanətlərin 54,5 faiz və yaxud 23 milyard 603,3 milyon manatı qeyri-maliyyə təşkilatlarının payına düşüb. Bu, illik müqayisədə 14,8 faiz çoxdur. İl ərzində ev təsərrüfatlarının əmanətləri isə 13,7 faiz artaraq 16 milyard 181,8 milyon manata çatıb. Hesabat dövründə cəmi depozitlərin 22 milyard 588,9 milyon manatı qısamüddətli, 20 milyard 692,3 milyon manatı isə uzunmüddətli olub.

**177 ölkə ilə xarici ticarət mübadiləsi aparılıb**

2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycan dünyanın 177 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib, 120-dən çox ölkəyə məhsul ixrac olunub, 170 ölkədən idxal edilib. Xarici ticarət dövriyyəsi 44,6 milyard dollar təşkil edib. Ticarət dövriyyəsinin 23,4 milyard dolları və ya 52,5 faizi ixracın, 21,2 milyard dolları və ya 47,5 faizi idxalın payınba düşüb.

Azərbaycanın xarici ticarət dövriyyəsinin 25,2 faizi İtaliya, 11,7 faizi Türkiyə, 10,1 faizi Rusiya, 9,5 faizi Çin, 3,1 faizi ABŞ, 2,9 faizi Almaniya, 2,3 faizi Birləşmiş Krallıq, 2 faizi İsveçrə, hər biri 1,8 faiz olmaqla Avstraliya və Çexiyanın payına düşüb. Digər ölkələrdən Gürcüstan, Yunanıstan, Bolqarıstan, Xorvatiya, Qazaxıstan, Rumıniya, İran, Özbəkistan, Ukrayna, Fransa, Belarus Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında yer alır.

Ötən il qeyri neft-qaz məhsullarının ixracı 8,5 faiz artaraq 3,6 milyard dollar təşkil edib. Yeyinti məhsulları üzrə ixrac isə 18,4 faiz artaraq 1,2 milyard dollara bərabər olub. İxracda şəkər məhsullarının həcmi 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 24,2 faiz, pambıq iplik 19,3 faiz, kimya sənayesi məhsulları 8 faiz, bitki və heyvan mənşəli piylər və yağlar isə 2 faiz artıb.

*E.CƏFƏRLİ*



# Müasir infrastruktur quruculuğu strateji hədəflərdən biri kimi

**İnfrastruktur quruculuğu hər bir ölkə üçün həm iqtisadi inkişaf, həm də yüksək vətəndaş məmnunluğunun təmin edilməsi baxımından müstəsna önəm daşıyır. Məqsədyönlü siyasətini mövcud reallıqları və yaranan çağırışları nəzərə almaqla quran Azərbaycan dövləti də ölkə boyunca müasir infrastruktur quruculuğunu özünün strateji hədəflərindən biri kimi müəyyənləşdirib. Bunun nəticəsi olaraq Azərbaycan qısa müstəqillik tarixində infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. Bu siyasətin davamı olaraq Prezident İlham Əliyevin 12 yanvar 2026-cı il tarixində imzaladığı müvafiq Sərəncamla "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" təsdiqlənib. Eyni zamanda, həmin tarixdə Prezident İlham Əliyevin sədrliyi ilə Dövlət Proqramına həsr olunmuş müşavirə keçirilib.**

## Əsas infrastruktur məsələləri öz həllini tapıb



Respublikamızda 2003-cü ildən hər bölgənin iqtisadi potensialı və əmək ehtiyatları nəzərə alınmaqla hazırlanaraq qəbul edilən bir neçə regional inkişaf proqramı uğurla icra olunub. Bu proqramların icrası çərçivəsində həmçinin müxtəlif təyinatlı infrastruktur obyektlərinin inşası diqqət mərkəzində saxlanılıb. İnfrastruktur obyektlərinin tikintisi bir qayda olaraq dövlət əsaslı vəsait qoyuluşu hesabına aparılıb. İlk növbədə yeni generasiya güclərinin yaradılması sayəsində ölkənin enerji təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsinin önəmini qeyd etmək lazımdır. Dövlət başçısı bu məsələyə toxunarkən bildirib ki, bir vaxtlar bu sahədə vəziyyət ürəkaçan deyildi: "Respublikada açıq-aşkar enerji qıtlığı problemi yaşanırdı. O cümlədən də şəbəkə köhnəlmişdi və onun yükgötürmə qabiliyyəti hədsiz dərəcədə məhdud idi. Xüsusilə də küləkli, yağışlı havalarda iqtisadiyyatın və əhalinin enerji təminatında ciddi çətinliklər yaranırdı. Müşavirədə bildirildiyi kimi, reallaşdırılan layihələr sayəsində ölkəmiz enerji təchizatı sahəsində tamamilə yeni mərhələyə qədəm qoyub. "Bu gün isə görülmüş tədbirlər nəticəsində həm generasiya gücləri yaradıldı, - hazırda təqribən 10 min meqavata yaxındır, - eyni zamanda, yarımstansiyalar, ötürücü xətlər, paylayıcı şəbəkə - bütün bu məsələlər vahid sistem halına salınmışdır. Vaxtilə bu sahədə qüsurların böyük hissəsi aradan qaldırılmışdır. Biz bu gün nəinki öz enerji tələbatımız haqqında, - bu məsələ həll edilmiş hesab olunur".



Ötən dövrdə qazlaşdırma infrastruktur quruculuğunun digər bir mühüm istiqaməti təşkil edib. Hazırda respublikamızda əhalinin mavi yanacaqla təminatı 96 faiz səviyyəsindədir ki, bu da böyük nailiyyətdir. Hətta ucqar dağ kəndlərində belə qazpaylayıcı şəbəkələr qurulub və təchizatda hər hansı bir problem yaşanmır. Bir vaxtlar Azərbaycan daxili mənbələr hesabına iqtisadiyyatın və əhalinin mavi yanacağa olan tələbatını ödəmək iqtidarında deyildi. Bu gün isə vəziyyət tamam fərqlidir - Azərbaycan öz imkanları hesabına həm daxili tələbatını tam ödəyir, həm də ayrı-ayrı ölkələrə, o cümlədən də Avropaya böyük həcmlərdə qaz ixrac edir.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilər də daxil olmaqla ölkəmizdə avtomobil yollarının inşası geniş vüsət alıb. Diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, layihələr həm magistral, həm də yerli əhəmiyyətli yollarda icra edilir. Bu sahədə də statistika kifayət qədər zəngindir. Belə ki, bəhs olunan dövrdə ölkə ərazisində 20, 767 km yol inşa olunub və yaxud əsaslı şəkildə yenidən qurulub. Həmçinin 499 körpü və yol ötürücüləri,114 yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib.

## Ölkə boyunca reallaşdırılan su layihələri

Azərbaycan dövlətinin su təminatı məsələsinə həssas yanaşması da təsadüfi deyil. Bu məsələnin aktuallığını artıran bir sıra ciddi amillər var. İlk növbədə onu qeyd edək ki, respublika üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizi qonşu ölkələrdən daxilolmaların hesabına formalaşır və qlobal iqlim dəyişikliyi həmin su axımlarının həcminə də öz təsirini göstərir. Qonşu ölkələrdən, xüsusilə də Ermənistan ərazisindən daxil olan suların mütəmadi olaraq çirkləndirilməsi də ciddi problemdir. Eyni zamanda, qlobal iqlim dəyişmələri və orta temperaturun yüksəlməsi, yağıntıların və çaylarda sululuğun əhəmiyyətli dərəcədə azalması su ehtiyatlarının həcminə mənfi təsir göstərir. Digər bir vacib faktor isə Azərbaycanın davamlı inkişafı ilə bağlıdır. Ölkə miqyasında aqrar sektorun və sənayenin inkişafı suya olan tələbatı da artırır.

Azərbaycanda son 22 ildə mövcud su resurslarından səmərəli istifadə edilməsi üçün bir sıra mühüm layihələr reallaşdırılıb. O cümlədən iri su anbarlarının inşası, ayrı-ayrı ünvanlarda magistral xətlərin yenidən qurulması, artezian quyularının qazılması, Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi, təmizləyici qurğuların işə salınması ölkə miqyasında su təminatını əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Görülən işlərin nəticəsi olaraq hazırda ölkə üzrə fasiləsiz su təminatı 72,5 faizə yüksəlib. Bakı və Abşeronda isə bu göstərici 70 faiz səviyyəsindədir.

İşğaldan azad olunmuş ərazilərdə reallaşdırılan su layihələri də kifayət qədər geniş əhatə dairəsinə malikdir. Bu ərazilər su ehtiyatları ilə zəngin bir diyardır. Respublikamızın su mənbələrinin təqribən dörddə bir hissəsi məhz üç onillik ərzində Ermənistanın nəzarətində qalmış regionda formalaşır. İndi həmin torpaqlar azaddır. Qalib Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra vaxt itirmədən qeyd olunan ərazilərin su ehtiyatlarından səmərəli şəkildə istifadə edilməsini hədəfləyən layihələrin icrasına start verib. Bu ərazilərdə ötən beş il ərzində "Sərsəng", "Suqovuşan", "Xaçınçay", "Zabuxçay" su anbarları yenidən qurulub. Bu istiqamətdə işlər gələcəkdə də davam etdiriləcək. O cümlədən "Həkəriçay" və "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulur.

## Bakının və Abşeronun su təminatında yeni mərhələ

Müvafiq Dövlət Proqramının təsdiqlənməsi ilə Bakının və Abşeronun su təchizatında yeni mərhələ başlayır. Yeni Dövlət Proqramının təsdiqlənməsi həmçinin Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən qəbul edilən milli su strategiyasının hədəflərinə uyğundur. Bu sənəddə su strategiyası bir sıra mühüm istiqamətlər üzrə qruplaşdırılıb. Bu sırada aşağıdakıları sadalamaq mümkündür:



-Əhalinin içməli suya tələbatının tam ödənilməsi üçün yeni su mənbələrinin yaradılması,
- Su itkilərinin azaldılması.
-Su-kanalizasiya və yağış suyu infrastrukturunun inkişaf etdirilməsi,
- Bakı şəhəri və Abşeron yarımadasının kanalizasiya şəbəkəsi ilə tam əhatə olunması,
-Xəzər dənizinin və göllərin ekoloji mühitinin yaxşılaşdırılması və s.

Milli su strategiyasında mühüm hədəflərdən biri də dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli suyun istehsalıdır. Müşavirədə vurğulandığı kimi, bu, dövlət-özəl tərəfdaşlığı səviyyəsində belə miqyasda hazırlanan ilk layihədir. Layihənin tenderinin qalibi Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti olub. Reallaşdırılacaq meqalayihə sayəsində duzsuzlaşdırılacaq su Bakı şəhərində və Abşeron yarımadasında faktiki istifadə olunan suyun 25 faizini təşkil edəcək.

*Mübariz ABDULLAYEV*

# 30 illik tərəfdaşlıq...

## Bakı - NATO münasibətləri: praktik, etibarlı və davamlı

**Azərbaycan yeni nizamda qlobal təhlükəsizliyin mühüm bir aktoruna çevrilməkdədir. Son 6 ildə Cənubi Qafqazın təhlükəsizlik arxitekturasını yenidən formalaşdıran, regionun sabitlik indeksinin tam yenilənməsini təmin edən Bakı artıq qlobal kontekstdə sülhün bərqərar olunmasına töhfə verir. istər Yaxın Şərq, istər Qlobal Cənubu əhatə edən sülhpərvər siyasətimiz bunun bariz sübutudur. Azərbaycan etibarlı tərəfdaş, sülhün və təhlükəsizliyin qorunmasında aktiv fəaliyyət göstərən ölkə kimi xarakterizə olunur. Müasir qlobal təhlükəsizlik çağırışlarının fonunda NATO ilə Azərbaycan arasındakı tərəfdaşlıq xüsusilə diqqəti cəlb edir. Bu əlaqələr qarşılıqlı etimad, siyasi dialoq və praktiki əməkdaşlıq üzərində qurulan nümunəvi tərəfdaşlıq modeli kimi ön plana çıxır. Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması, Planlaşdırma və İcmal Prosesi (PARP) çərçivəsində fəal iştirakı, eləcə də NATO-nun müxtəlif missiya və əməliyyatlarına verdiyi töhfələr ölkəmizin alyansla münasibətlərinin institusional və yüksəksəviyyəli xarakter daşıdığını göstərir. Eyni zamanda, Bakıda NATO ilə bağlı keçirilən müntəzəm siyasi məsləhətləşmələr, yüksək səviyyəli görüşlər və qarşılıqlı səfərlər bu əməkdaşlığın yalnız texniki deyil, strateji məzmun daşıdığını təsdiqləyir.**

**Bakının regional sabitliyə verdiyi töhfə, enerji təhlükəsizliyi sahəsində oynadığı mühüm rol və beynəlxalq sülhməramlı təşəbbüslərdə fəallığı NATO tərəfindən də yüksək qiymətləndirilir. Məhz bu amillər Azərbaycan-NATO əlaqələrini sırf formal tərəfdaşlıqdan çıxararaq, qlobal və regional təhlükəsizlik arxitekturasına real töhfə verən, etibarlı və davamlı əməkdaşlıq səviyyəsinə yüksəldir.**



Yeri gəlmişkən, NATO Baş katibinin müavini Radmila Şekerinska Azərbaycana səfəri çərçivəsində KİV-ə müsahibəsində bildirib ki, NATO ilə Azərbaycan təxminən otuz ildir ki, tərəfdaşlıq edir. Bu, çox möhkəm bir təməldir, çünki tərəfdaşlığımız hər iki tərəfin qarşılıqlı öhdəliyinə, qarşılıqlı fəaliyyətə və əməkdaşlığa əsaslanır: "Biz bu tərəfdaşlığı bir addım da irəli aparmaq istəyirik. Hazırda NATO ilə Azərbaycan arasında "Fərdi Uyğunlaşdırılmış Tərəfdaşlıq Proqramı"nın demək olar ki, müəyyən bir mərhələsini başa çatdırmışıq. Bu proqram bizə həm siyasi dialoqu davam etdirmək, həm də praktiki əməkdaşlığı genişləndirmək imkanı verib. Azərbaycan bu əməkdaşlıqdan müxtəlif təlimlərdə iştirak, hərbi təlimlər, müdafiə islahatlarının dəstəklənməsi və modernləşmə istiqamətində faydalanıb. Bundan əlavə, biz Dürüstlüyün Təmin Edilməsi (Building Integrity), minatəmizləmə, kibertəhlükəsizlik kimi sahələrdə də əməkdaşlıq etmişik. Biz qarşılıqlı faydalı olan sahələrdə əməkdaşlığı davam etdirməyi planlaşdırırıq. Çünki bu tərəfdaşlıq Azərbaycanla NATO arasında əməkdaşlığın zəruri məsələlər üzrə birgə işləməsini nəzərdə tutur".

Vurğulandığı kimi, Azərbaycan daima qlobal təhlükəsizlik seqmentinin təmini üçün formalaşdırılan əməkdaşlıq platformalarının üzvü və ya tərəfdaşı olaraq mühüm fəaliyyəti ilə seçilib. Bu mənada, əməkdaşlıq etdiyimiz qrumlardan biri də NATO-dur. Azərbaycan

## NATO əməkdaşlığı davam etdirməyi planlaşdırır...

NATO ilə hərbi sahədə yaxın tərəfdaşlığa malikdir - ölkəmiz alyansın bir sıra sülhyaratma missiyasında uğurla təmsil olunub. 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq", 2004-cü ildən isə "Fərdi tərəfdaşlıq" proqramlarına qoşulan, 1999-cu ildə NATO Parlament Assambleyasına müşahidəçi, 2002-ci ildən isə assosiativ üzv qəbul edilən Azərbaycan ilə NATO arasındakı münasibətlər praktiki tərəfdaşlığa söykənir. Ölkəmiz ilə qurum arasındakı hərbi əməkhdaşlığa diqqət yetirdikdə görmək olur ki praktiki əməkdaşlığın əsas istiqamətlərini müdafiə və təhlükəsizlik sektorunda islahatlar, beynəlxalq əməliyyatlarda iştirak, fövqəladə hallara hazırlıq, təhlükəsizliklə əlaqəli olan elmi və ekoloji məsələlər və ictimai diplomatiya təşkil edir. Son dövrlərdə Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində ciddi addımlar atılıb.



## Regionda sülh və sabitlik üçün möhkəm əsas



Qeyd edək ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan  və ABŞ liderləri arasında baş tutan görüş, imzalanan Birgə Bəyannamə beynəlxalq münasibətlər sistemində mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir. Bu sənəd təkcə iki dövlət arasında münasibətlərin yeni müstəviyə yüksəldilməsi deyil, həm də bütövlükdə Avrasiya məkanında sabitliyin möhkəmlənməsi, sülhün təşviqi və qlobal təhlükəsizliyin təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Ən əsası, bəyannamə sülh sazişinin imzalanması istiqamətində atılmış ən əsaslı və real addım kimi qiymətləndirilir. Belə bir sənədin imzalanması beynəlxalq sabitlik üçün ümidverici siqnaldır. Bu təşəbbüs müasir qlobal çağırışlara - terrorizmə, hərbi-siyasi risklərə, enerji böhranlarına və iqtisadi qeyri-müəyyənliyə qarşı daha koordinasiyalı yanaşmanı zəruri edir. Vaşinqton bəyannaməsi məhz bu baxımdan yalnız regional deyil, qlobal təhlükəsizlik mühitinə əlavə dəyər gətirir.

NATO Baş katibinin müavini də ötən il Vaşinqtonda iki ölkə arasında baş vermiş böyük irəliləyişi, ikitərəfli münasibətlərdə kəskin dönüşün və dəyişimin həqiqətən yüksək qiymətləndirildiyini, təqdir edildiyini bildirib. O deyib ki, NATO bu razılaşmanı regionda sülh və sabitlik üçün möhkəm əsas kimi görür: "Regionun sabitliyinə və hər iki ölkənin gələcək əməkdaşlığı üçün atılan addımlar münasibətilə Azərbaycanı, Ermənistanı və hər iki dövlətin rəhbərlərini biz artıq səmimiqəlbdən təbrik etmişik. Münasibətlərin normallaşmasını çox vacib hesab edirik".

8 avqust bəyənnaməsinin iqtisadi aspekti də xüsusi vurğulanmalıdır. Avrasiya məkanının mühüm dövlətləri arasında sabitliyin təmin olunması ticarət yollarının təhlükəsizliyini, nəqliyyat dəhlizlərinin dayanıqlı fəaliyyətini və enerji marşrutlarının etibarlılığını daha da gücləndirir. Bu, həm region ölkələri, həm də Avropa və Asiya üçün yeni iqtisadi imkanlar deməkdir. Radmila Şekerinska deyib ki, ticarət sahəsində artıq atılmış bəzi addımları, o cümlədən Ermənistana malların tranziti üçün icazə verilməsini çox faydalı hesab edirik: "Ümid edirik ki, növbəti addımlar tezliklə atılacaq, - yəni sazişin imzalanması və ratifikasiyası baş tutacaq. Bu irəliləyişi mümkün etdiklərinə görə həm Bakını, həm də İrəvanı təbrik etmişik, çünki bilirik ki, bu regionun sabitliyi bizim təhlükəsizliyimiz üçün də son dərəcə önəmlidir".




## Azərbaycan Kabildən çıxan son ölkə oldu...

Qurum ilə ölkəmiz arasındakı əməkdaşlıq həm də praktik mahiyyət daşıyır. Belə ki, Azərbaycan NATO-nun müxtəlif sülhyaratma missiyalarında uğurla təmsil olunub, fəallıq nümayiş etdirib. 1999-2008-ci illərdə NATO-nun rəhbərliyi ilə Kosovoda keçirilən sülhməramlı və sülhə dəstək əməliyyatlarına qoşulub. Hərbçilərimiz NATO qüvvələri ilə birlikdə, həmçinin İraqda da sülhməramlı missiya həyata keçiriblər, Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarında iştirak ediblər. Azərbaycan hərbçiləri 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət göstəriblər. Məlum hadisələr zamanı hərbçilərimiz Əfqanıstan paytaxtının hava limanını ən axırıncı tərk edənlərdən olublar. Sülhməramlılarımız hava limanında 120 mindən çox insanın təxliyəsinə töhfə veriblər. NATO Baş katibinin müavini bildirib ki, NATO ilə Azərbaycan arasında tərəfdaşlıq ikitərəfli bir prosesdir. Qurum müxtəlif proqramlar çərçivəsində Azərbaycanı bir çox istiqamətdə dəstəkləyib: "Eyni zamanda, Azərbaycan da öz öhdəliyini nümayiş etdirib. Bunun ən aydın göstəricilərindən biri Azərbaycanın Əfqanıstandakı missiyalarımıza qoşulmasıdır. Bu missiyalar Alyans üçün son dərəcə vacib idi. Siz tərəfdaş kimi bizim səylərimizə qoşuldunuz və çox uzun, çox çətin bir dövr ərzində orada qaldınız. Azərbaycan hətta Kabildən çıxan son ölkə oldu və bu, sizin öhdəliyiniz və töhfəniz haqqında çox şey deyir. Azərbaycan, həmçinin NATO müttəfiqlərinə köhnə enerji asılılıqları ilə mübarizədə çox faydalı, həlledici və mühüm dəstək göstərdi. Onlar Rusiyadan enerji tədarükünü dayandıraraq, bunu Azərbaycandan gələn enerji ilə əvəz edə bildilər".

***P.SADAYOĞLU***

# Ukrayna təhlükəsizlik zəmanəti tələb edir








Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesi beynəlxalq müstəvidə əsas müzakirələrdən biridir. ABŞ Ukraynanın ərazi güzəştlərinə getməsinə çalışsa da, Kiyev buna hələ də müqavimət göstərməkdədir. Hazırda danışıqların əsas mövzusu Ukraynanın təhlükəsizlik təminatı ilə bağlıdır. Yanvarın 24-də Əbu-Dabidə Rusiya, ABŞ və Ukrayna nümayəndə heyətlərinin iştirakı ilə keçirilən üçtərəfli danışıqlarda da bu məsələ diqqət mərkəzində olub. Danışıqlar neytral vasitəçi və ev sahibi kimi çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin paytaxtındakı sarayda müxtəlif formatlarda keçirilib. Məsləhətləşmələrdən əvvəl nümayəndə heyətlərini BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan qəbul edib.

**Zelenski görüşün nəticələrini konstruktiv adlandırıb**

Rusiya nümayəndə heyətinə Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Baş idarəsinin rəisi admiral İqor Kostyukov, Ukrayna nümayəndə heyətinə isə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov rəhbərlik ediblər. Danışıqlar təhlükəsizlik məsələlərinə, o cümlədən bufer zonalarının yaradılması, onlara nəzarət və monitorinq mexanizmləri, eləcə də nizamlanmanın ərazi aspektlərinə yönəlib.

Ukrayna Prezidenti Volodimir Zelenski Əbu-Dabidə keçirilən üçtərəfli görüşün nəticələrini konstruktiv adlandırıb. "Telegram" kanalında paylaşımında qeyd edib ki, danışıqlar üç tərəfin hərbi nümayəndələrinin iştirakı ilə davam edib. Müzakirələrin əsas diqqət mərkəzində müharibənin sona çatması üçün mümkün parametrlər olub. Amerikanın müharibənin sona çatması və real təhlükəsizliyin qorunması prosesinin monitorinqi və nəzarətinə ehtiyac olduğunu qəbul etməsini yüksək qiymətləndirirəm", - deyə Zelenski vurğulayıb.

Ukrayna Prezidenti qeyd edib ki, Amerika tərəfi müharibənin sona çatması üçün parametrlərin təsdiqlənməsi üzrə mümkün formatlar və zəruri təhlükəsizlik şəraiti məsələsini qaldırıb: "Son bir neçə gün ərzində keçirilən görüşlərdən sonra bütün tərəflər danışıqların hər bir aspekti üzrə paytaxtlarına hesabat vermək və gələcək addımları liderləri ilə əlaqələndirmək barədə razılığa gəliblər". Zelenski vasitəçiliyinə və gələcək görüşlərə ev sahibliyi etmək istəyinə görə BƏƏ-yə və onun Prezidentinə təşəkkür edib.

**BƏƏ-də danışıqların növbəti mərhələsi olacaq**

Prezident Donald Trampın xüsusi nümayəndəsi Stiven Uitkoff isə bu həftənin sonu Əbu-Dabidə Rusiya, ABŞ və Ukrayna arasında üçtərəfli danışıqların yeni mərhələsinin keçirilməsi planlarını təsdiqləyib. O, bu barədə X sosial şəbəkəsində paylaşım edib. Uitkoff bildirib ki, "cümə və şənbə günləri ABŞ, Ukrayna və Rusiya nümayəndələrinin iştirakı ilə BƏƏ-nin ev sahibliyi etdiyi üçtərəfli görüş keçirilib. Danışıqlar çox konstruktiv mühitdə baş tutub və müzakirələrin Əbu-Dabidə davam etdirilməsi planlaşdırılır". O əlavə edib ki, Tramp administrasiyası münaqişəyə son qoymaqda qətiyyətlidir.

"Politico" nəşri isə Tramp administrasiyasında adı açıqlanmayan məmura istinadla məlumat yayıb ki, ABŞ gərginliyin azaldılması yolu ilə Rusiya ilə Avropa arasında etimadın artırılmasına ümid edir. Nəşrin mənbədən sitat gətirdiyi açıqlamada deyilir: "Aydındır ki, hazırda Avropa ilə Rusiya arasında etimad səviyyəsi yüksək deyil. Lakin biz etimadın formalaşmasına imkan verəcək yeni bir paradiqmanın işə salınması üçün zəmin yaratmaq istəyirik". "Politico"nun məlumatına görə, iqtisadi məsələlər və Zaporojye Atom Elektrik Stansiyası üzərində nəzarət Rusiya, ABŞ və Ukrayna nümayəndələri arasında Əbu-Dabidə keçirilən məsləhətləşmələrin əsas mövzuları olub.

**Kiyev üçün ABŞ-ın təhlükəsizlik zəmanəti əsasdır**

ABŞ hesab edir ki, Ukrayna üçün Vaşinqton tərəfindən verilə biləcək təhlükəsizlik zəmanətləri Avropadan olan "Könüllülər koalisiyası"nın səylərindən daha əhəmiyyətlidir. Qəzet Rusiya, ABŞ və Ukrayna nümayəndələri arasında Əbu-Dabidə keçirilən üçtərəfli məsləhətləşmələrdən sonra mənbənin sözlərini sitat gətirərək yazır: "Könüllülər koalisiyası"nın səyləri müsbətdir. Onların bir neçə helikopteri, bir neçə əsgəri və müəyyən zəmanətləri var. Lakin ukraynalılarla danışsanız, əslində həlledici olanın Amerika təhlükəsizlik zəmanətləri olduğunu görərsiniz".

Prezident Zelenski də Litvaya səfəri zamanı bəyan edib ki, Ukrayna üçün konkret təhlükəsizlik zəmanətləri təkcə Ukrayna ərazisində deyil, həm də bütün Avropa üçün təhlükə yaradan müharibənin dəqiq bitmə tarixinin müəyyənləşdirilməsinə yol aça bilər. Onun sözlərinə görə, ABŞ ilə ikitərəfli təhlükəsizlik zəmanətləri Ukrayna üçün əsasdır. Müvafiq sənəd artıq hazırdır və Ukrayna tərəfdaşların imzalaması üçün müvafiq status verməyə hazır olduğunu gözləyir: "Sənəd 100 faiz hazırdır və tərəfdaşlarımızın imzalanma tarixi və yeri ilə bağlı hazır olmalarını gözləyirik. Daha sonra sənəd razılaşmalarımıza uyğun olaraq ABŞ Konqresinə və Ukrayna parlamentinə təsdiq üçün təqdim ediləcək".

Prezident təhlükəsizlik zəmanətlərinin ikinci elementi kimi Avropa zəmanətlərini, eləcə də Ukraynanın gələcəkdə Avropa İttifaqına üzvlüyünü qeyd edib. Zelenski, həmçinin iqtisadi təhlükəsizlik zəmanətlərinin və Avropa inteqrasiyası üçün dəqiq müddətlərin vacibliyini qeyd edib. Onun sözlərinə görə, Ukrayna texniki olaraq 2026-cı ilin birinci yarısında, 2027-ci ildə isə tam olaraq Aİ ilə danışıqlar klasterlərini açmağa hazır olacaq. Prezident deyib ki, Ukrayna müharibənin sona çatması ilə bağlı sazişdə konkret bir tarixi təmin etməyə çalışır ki, təcavüzkar da daxil olmaqla bütün tərəflər sazişlərə əməl etməyə və gələcəkdə baş verə biləcək maneələrin qarşısını almağa borclu olsunlar.

***N.BAYRAMLI***

# Fransanın Afrika ölkələri ilə bağlı siyasəti dəyişir?

**Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın, əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Bu dövlətin müstəmləkəçilik siyasətinin tarixi yüz illərə gedib çıxır.**



## Kolonializm siyasəti Fransa üçün xarakterikdir

Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal altına alan, sərvətlərini talan edən, xalqlarını uzun illər ərzində əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. Bütövlükdə, Fransanın müstəmləkəçilik siyasəti həmin xalqlara yaxşı heç nə gətirməyib. Onlar sivilizasiyadan geri qalıblar, sərvətləri talanıb Fransaya daşınan ölkələr asılı vəziyyətə düşüblər, diskriminasiya nəticəsində yerli xalqlar milli kimliklərini itirmək təhlükəsi ilə üzləşiblər.

Fransa istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Təbii ki, zaman ötdükcə Fransa müstəmləkəçilik siyasətində müəyyən forma dəyişiklikləri etmək məcburiyyətində qalıb. Ancaq zaman və forma dəyişsə də, ənənəvi müstəmləkəçilik neokolonializmlə əvəzlənsə də, bu siyasətin mahiyyəti dəyişməyib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı üçün məsuliyyət daşıyır.

## Makron Afrika ilə əlaqələrə yenidən baxa bilər



Bütün bunların fonunda Fransa Prezidenti Emmanuel Makron 2017-ci ildə Yelisey sarayına gəldikdən sonra Fransa ilə Afrika ölkələri arasındakı münasibətləri yenidən qurmaq istədiyini bildirib. Milli Assambleya tərəfindən yayımlanan "France-Afrique, le divorce?" adlı sənədli filmdə dövlət başçısı postkolonial dövrdən miras qalmış yanaşmalardan imtina etdiyini və Fransa-Afrika əlaqələrinin əsaslı şəkildə yenilənməsini müdafiə edir. Özünü müstəmləkəçilik dövründən sonra doğulmuş ilk Fransa Prezidenti kimi təqdim edən Emmanuel Makronun sözlərinə görə, Afrika əhalisinin dörddə üçü həmin dövrü şəxsən yaşamayıb. O, münasibətlərin yalnız keçmiş üzərində qurulmasından çıxmağın vacibliyini vurğulayır, eyni zamanda tarixi reallıqların tanınmasının zəruri olduğunu qeyd edir. Bununla belə, o, bu yanaşmanın peşmançılıq və ya tövbə məntiqinə əsaslanmadığını bildirir.

Fransa Prezidenti tədricən postkolonial hesab edilən mexanizmlərə son qoyduğunu və bunun doğurduğu anlaşılmazlıqlara baxmayaraq, bu seçimi üzərinə götürdüyünü deyir. O, Fransanın Afrikadan geri çəkildiyi fikrini rədd edərək, bəzi tənqidlərin Parisin artıq həyata keçirmək istəmədiyi müdaxilə və güc balansı gözləntilərindən qaynaqlandığını bildirir.

Sənədli filmdə Emmanuel Makron Fransanın xüsusilə Sahel bölgəsində bir sıra Afrika ölkələrindən çıxmasından sonra bəzi hərbi rejimlərin Rusiyaya yaxınlaşdığını qeyd edir. O, xüsusilə Malini misal çəkərək, çevrilişdən sonra hakimiyyətə gələn rəhbərliyin Fransa ilə əməkdaşlığın kəsilməsindən sonra yaranan "təhlükəsizlik boşluğunu" doldurmaq üçün Moskvaya müraciət etdiyini deyib. Makronun fikrincə, bu seçim öz təhlükəsizlik problemlərinə davamlı həllər təqdim edə bilməyən zəif milli siyasi sistemlərin göstəricisidir. O, bu vəziyyətin əsas zərbəni mülki əhaliyə vurduğunu və onların bu prosesin ilk qurbanları olduğunu vurğulayır.

## Rusiyanın Afrikada güclənməsindən narahatlıq...




Fransa Prezidenti Rusiyanın Afrikadakı strategiyasını neokolonializm kimi xarakterizə edir. Onun sözlərinə görə, xüsusilə "Vaqner" qrupu vasitəsilə göstərilən təhlükəsizlik dəstəyi əməkdaşlıq və ya inkişaf məqsədi daşımır. Makron bildirir ki, bu mexanizmlər əsasən hakimiyyətdə olan liderlərin qorunmasına, əvəzində isə mədən resurslarına çıxışın, informasiya sistemlərinə nəzarətin və uzunmüddətli siyasi təsirin təmin edilməsinə xidmət edir. Emmanuel Makron bu yanaşmanı Fransanın mövqeyi ilə müqayisə edərək vurğulayır ki, Paris artıq rejimləri dəstəkləmək və ya devirmək üçün müdaxilə etmək, yaxud da müstəmləkə dövründən qalma güc münasibətlərinə girmək niyyətində deyil. O, qeyd edir ki, yerli hakimiyyət orqanları əməkdaşlıq çərçivəsini pozduqda Fransa bunu qəbul edir və geri çəkilir.

Sənədli filmdə Makron Benini Fransa ilə Afrika ölkəsi arasında sabitləşmiş ikitərəfli münasibətlərin nümunəsi kimi təqdim edir. Onun sözlərinə görə, Parislə Kotonu arasındakı əlaqələr Sahel bölgəsindəki bəzi ölkələrdən fərqli olaraq institusional əməkdaşlıq çərçivəsində qorunub saxlanılıb. Makron bildirir ki, Fransa ilə Benin arasında tərəfdaşlıq davamlı siyasi dialoqa və xüsusilə silahlı qrupların fəallaşdığı regional şəraitdə təhlükəsizlik sahəsində açıq əməkdaşlığa əsaslanır. O, keçmişdə Benin prezidenti ilə qeyri-rəsmi və qardaşlıq mühitində səsləndirdiyi bəzi fikirlərlə bağlı yaranan mübahisələrə də toxunaraq, bu açıqlamaların ikitərəfli münasibətlərə zərər vurmadığını və diplomatik gərginliyə səbəb olmadığını bildirir.

Fransa Prezidenti Benini hərbi çevrilişlərdən sonra Fransa ilə əməkdaşlığı kəsən ölkələrdən fərqləndirir. Bu nümunə vasitəsilə Emmanuel Makron Parisin Afrika dövlətləri ilə qurmaq istədiyi münasibət modelini - keçmişin tanınmasına əsaslanan, lakin müdaxiləçilikdən uzaq, gələcəyə yönəlmiş və komplekslərdən azad tərəfdaşlıq təqdim edir.

***N.BAYRAMLI***

# Tarixdə bu gün: Holokost qurbanlarının Beynəlxalq Anım Günüdür



27 yanvar tarixi dünyanın ən böyük soyqırımlarından sayılan Holokostun anım günüdür. 1945-ci ilin bu günü SSSR ordu generalı Pavel Kurotçkin tabeliyində olan 60-cı Ordu nasistlərin ən böyük ölüm düşərgələrindən sayılan Osvensimə daxil olaraq sağ qalanları xilas etdi. Holokost (yunanca: holokauston), "holos" (bütün) və "kaustos" (yanmış, köz olmuş) sözlərinin birləşməsindən düzəlir və tamamilə yanmış, yanıb kül olmuş mənasını verir - Yəhudi soyqırımı ya da Ha-Shoa (ivritcə: fəlakət) - Almaniyanın faşizm dövründə törətdiyi, təxminən 6 milyon nəfərin sistemli şəkildə öldürüldüyü qətliama verilən addır. Bu qətliamda yəhudilər başda olmaqla sintlər, romanlar və digər "qaraçı" kimi qəbul edilən insanlar, faşizm əleyhdarı olan almanlar, əlillər, homoseksuallar və döyüş əsirləri bu qətliamın qurbanı olublar. Faşistlər Holokostu "yəhudi probleminə son həll" olaraq gördülər. Bütün Holokost qurbanları hesaba alınarsa, həyatını itirənlərin sayı 17 milyon nəfərə qədər qalxa bilər.

**Soyqırımdan əvvəl Avropa yəhudilərinin sayı 11 milyon idi**

Bu insanların öldürülmə səbəbləri isə faşizm dövründə son həddə çatmış yəhudilərə nifrətin və faşizm irqçiliyinə görə "yaşamaq haqqı olmayan aşağı irqlər" olaraq görülmələri idi. 1933-cü il 1 aprel tarixində Adolf Hitler alman xalqını yəhudi dükanlarına qarşı boykota dəvət edib. Bu boykot yəhudi dükanlarının sökülməsi, qarət edilməsi və sahiblərinin döyülməsi ilə nəticələnib. 1935-ci ildə yəhudilərin həkimlik, eczaçılıq, əsgərlik və bir çox işlərdə çalışması qadağan edilib. 15 sentyabr 1935-ci il tarixində qəbul olunan "Nurnberg qanunları"na görə ali irqdən olmayanlar "aşağı sinif" insanlardır və onlarla ailə qurmaq yasaqlanıb. 1936-cı ildə Berlində keçirilən olimpiya oyunları ilə dünyanın diqqətinin Almaniyaya yönəlməsi sayəsində bir müddət yəhudilərə nifrət, antisemitizm təbliğetmələri arxa planda qalır. Amma 1938-ci ildən etibarən antisemitizm əvvəlkindən daha şiddətli şəkildə geri dönür. 1938-ci ilin yanvarından etibarən yəhudilərin yalnız yəhudi adlarından və soyadlarından istifadə etməsi haqqında yeni qayda qəbul olunub. 1 sentyabr 1939-cu ildə yəhudi soyqırımına start verilib. 20 yanvar 1942-ci ildə isə Adolf Eichmann tərəfindən idarə olunan yüksək dövlət məmurlarının Yəhudi probleminin son həllinin təşkil edilməsinin detallarının müzakirə olunduğu Wannsee Konfransı reallaşdı. Bu protokola görə öldürülmələri planlaşdırılan Avropa yəhudilərinin sayı 11 milyon idi. İlk ölüm düşərgələri 1933-cü ildən Daxauda inşa edildi. Daha sonra isə siyahıya Auschwitz-Birkenau (1941), Chelmno (ya da Kulmhof) (1941), Varşava (1942), Lublin (1942), Belzec Lublin yaxınlığında düşərgə (1942) əlavə edildi.

**6 milyon günahsız insan qətl edildi...**

Faşizm dövründən qalma Holokostun layihə şəklini sübut edən yazılı sənədlərin sayı çox azdır. Bununla əlaqədar olaraq faşizm rəhbərliyinin gələcəyə sübut saxlamamaq üçün sənədləri şüurlu olaraq yox etdikləri barədə məlumatlar da var. Holokostun layihə şəkli dövlət sirri olaraq dəyərləndirilirdi və Holokostu hazırlayan rəhbərlik bu işdə əli olan digər insanlara bu mövzunu çölə çıxarmamaq əmri vermişdi. Yəni Holokostu hazırlayanlar etdiklərinin insanlıqdan kənar olduğunu dərk edirdilər. Holokost qurbanlarının sayı uzun zaman ancaq təxmin edilmişdi. Nürnberq məhkəməsi 1946-cı ildə öldürülən yəhudilərin sayını ilk dəfə olaraq 6 milyon nəfər göstərmişdi. 1990-cı ildən bu zamana qədər bilinməyən sənədlərlə dolu Sovet arxivləri tarixçilərə daha çox məlumatlar verdi. Bu arxivlərdə düşərgələrə köçürülənlərin siyahısı, sürgün üçün istifadə olunan qatarların planları və yəhudilərin Holokostdan əvvəlki sayını ehtiva edən sənədlər vardı.



Bu sənədlərin köməyi ilə öldürülənlərin sayları təkrar hesablanmış və məsələn, Auschwitz ölüm düşərgəsində 1,1 milyondan daha az yəhudi öldürüldüyü ortaya çıxmışdı. Digər ölkələrdə də ölənlərin sayları daha dəqiq olaraq hesablandı.

**Xocalı faciəsinin mahiyyəti Holokostla eynidir**

Holokost qurbanlarının xatirəsi hər il bütün dünyada qeyd edilir, anılır. Bu dəhşətli qətliam dünya üçün bir siqnaldır - irqi ayrı-seçkilik, yalnız bir din və ya bir millətə məxsus olduğu səbəbilə bu kimi dəhşətli bir soyqırımın həyata keçirilməsi yolverilməzdir. Təəssüf ki, Holokost bu mənada son faciə olmadı. XX əsrin sonunda ermənilərin Xocalı şəhərində həyata keçirdiyi soyqırımı faktı da Holokostun təkrarı idi. Yalnız azərbaycanlı olduğu üçün öldürülən 613 nəfər dinc insanın 63 nəfəri uşaq, 106-sı qadın, 70-i isə qocalar idi. Bir neçə saatın içində milli zəmində amansızlıqla qətlə yetirilən bu şəxslərlə yanaşı, 487 nəfər ağır xəsarətlərə məruz qoyuldu, 1275 nəfər isə girov götürüldü. Ermənilər qəniçənlikdə vaxtilə dünyanı lərzəyə salmış faşizmi də geridə qoyduqlarını nümayiş etdirdilər. Beynəlxalq humanitar hüquq normalarını, insan hüquqları üzrə ən müxtəlif konvensiyaları ayaq altına atan erməni hərbi birləşmələri insanları qətlə yetirmək məqsədilə ən qəddar üsullara əl atdılar. Şəhidlərin təsdiqlədiyinə görə həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək olan uşaqlar, ahıl qocalar güllələnib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarınları yarılıb, adamlar diri-diri torpağa basdırılıb və ya yandırılıb. Güllə yarasından ölməyənlərin başlarına sonradan güllə vurulub, meyitlər zorakılığa məruz qalıb.

Holokostun dəhşəti təkcə qurbanların sayında deyil, həm də bu cinayətlərin soyuqqanlı planlaşdırılmasında idi. İnsanlar qaz kameralarına göndərildi, aclıq, xəstəlik və ağır əmək vasitəsilə məhv edildi. Ailələr parçalandı, uşaqlar valideynlərindən ayrıldı, milyonlarla insanın xatirəsi torpağa gömüldü. Bu, sadəcə tarixdə baş vermiş hadisə deyil; bu, insanlığın özünə qarşı törətdiyi cinayətdir.

Sonda bir həqiqəti unutmayaq: Holokost keçmişin faciəsi deyil, unudularsa gələcəyin təhlükəsidir. Qurbanların xatirəsini yaşatmaq, insan ləyaqətini qorumaq deməkdir. Bəşəriyyət bu dərsi unutmağa haqqı yoxdur...

***Yeganə BAYRAMOVA***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Repressiyaların kölgəsində böyüyən elm işığı!

## Sara Aşurbəyli ən sərt zərbələrə belə əyilməmişdi...





Azərbaycan elminin və mədəniyyətinin tarixində elə adlar var ki, onların taleyi yazdıqları əsərlərdən daha az dramatik, daha az dəyərli deyil. Sara Aşurbəyli məhz belə şəxsiyyətlərdəndir. O, təkcə görkəmli tarixçi-şərqşünas, Bakı və Azərbaycan orta əsrlər tarixinin yorulmaz tədqiqatçısı deyil, həm də həyatın ən sərt sınaqları qarşısında sınmayan bir iradənin simvolu idi. Onun ömür yolu rahat akademik kabinetlərdən keçməmişdi. Zadəgan ailəsində doğulmasına baxmayaraq, sovet repressiyaları onun həyatını alt-üst etdi. Atasının güllələnməsi, ailənin “xalq düşməni” damğası ilə üz-üzə qalması, maddi və mənəvi sıxıntılar - bütün bunlar bir insanı sındırmaq üçün yetərli idi. Amma o, əyilmədi. Həyatın ən sərt zərbələri belə onun elmə olan inamını, biliyə olan ehtirasını əlindən ala bilmədi.

Yorulmaz tədqiqatçı, əsl elm fədaisi, Azərbaycan tarix elminin sütunlarından biri olan Sara xanım Aşurbəyli bütün ömrü boyu vətənpərvər bir ziyalı həyatı yaşamışdı. Məşhur tarixçi Bakı neft sənayeçisi və xeyriyyəçi Bala bəy Aşurbəylinin ailəsində dünyaya göz açıb. O, bu nəslin ən görkəmli təmsilçilərindən biri olaraq Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin tarixinin tədqiqinə öz misilsiz töhfələrini verib. Faciəli tale yaşamış Sara xanım orta əsrlər Abşeronunun fundamental araşdırıcısı kimi bütün dünyada tanınır. Məhz S.Aşurbəylinin səyi nəticəsində Aşurbəylilərin geniş nəsil şəcərəsini bərpa etmək mümkün olub.

Bu gün Sara xanımın anadan olmasından 120 il ötür. Görkəmli alim 1906-cı il yanvarın 27-də Bakıda dünyaya gəlib.

**Yeddi dil bilirdi...**

S.Aşurbəylinin fəaliyyətində bir neçə xarici dil bilməsi hər zaman xüsusi önəm daşıyıb. O, 1925-ci ildə İstanbulda Janna Dark adına fransız kollecini bitirib. Yeddi dili-ingilis, fransız, alman, ərəb, fars, türk, rus dillərini mükəmməl bilirdi. Əcnəbi dilləri bilməsi hansısa məqamda Sara xanımın əlindən tutur, təqib olunduğu illərdə xarici dillərə yiyələnməsi və rəssamlıq təhsili ona ağır yaşam illərinə tab gətirməkdə böyük yardımçı olur. Belə ki Sara xanım Azərbaycan Dram Teatrında rəssam-dekorator kimi çalışır. Bundan başqa, o, həm də xarici dilləri gözəl bildiyinə görə Üzeyir Hacıbəylinin dəvəti və köməyi ilə 15 il ardıcıl olaraq Dövlət Konservatoriyasında xarici dildən dərs deyir.

**İlk və yeganə tarixçidir ki...**

Sara xanım özünün yüksək intellektini Azərbaycan xalqının rifahı, onun tarixi, mədəniyyəti naminə tətbiq etmişdi. Onu yaxından tanıyan insanların yaddaşında Sara xanım nəcib, üzügülər, alicənab və əsilzadə bir xanım kimi qalıb.

Sara xanımı Azərbaycan tarixşünaslığında əbədi yaşadan onun qədim Bakının (İçərişəhərin) tarixinə dair olan tədqiqatlarıdır. O, ilk və yeganə tarixçidir ki, öz həyatını Bakı (İçərişəhər) və Şirvanşahlar dövlətinin tarixinin tədqiqinə həsr etmişdi. Bu əsərlərdə qədim Bakının yaranma tarixi orta əsrlər Bakısının siyasi tarixi, mədəniyyəti, sosial münasibətləri əks olunmuşdu. Minillik tarixə malik, İçərişəhər memarlığının formalaşmasına böyük təsir göstərmiş qüdrətli Şirvanşahlar dövlətinin sosial-siyasi, iqtisadi, mədəni həyatı VI əsrdən XVI əsrə kimi zəngin mənbələr əsasında araşdırılıb, Şirvanşahlar sülaləsinin tarixi, şəhərlərin iqtisadi vəziyyəti və inkişafı, əhalinin tərkibi, feodal cəmiyyətinin quruluşu kimi məsələlər geniş tədqiq olunub. O, bu tədqiqatları əsasında Sankt-Peterburqda namizədlik, Tbilisidə isə 1966-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. Azərbaycan tarixində bu gün də önəmli rol oynayan dəyərli tarixi kitabların, elmi monoqrafiyaların, yüzlərlə məqalənin müəllifi, bir sıra beynəlxalq konfransların iştirakçısı olub.

**Həm də rəssam və musiqiçi idi...**

S.Aşurbəyli Yaxın və Orta Şərq xalqları tarixinin bilicisi olmaqla yanaşı, həm də rəssam və musiqiçi idi. O, fortepianoda həm Azərbaycan təranələrini, muğamlarını, həm də klassik Avropa musiqisini əla ifa edirdi.

Sara xanım bir çox rəsm əsərlərinin müəllifi olub. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin sözlərinə görə, sərgilərdən birində onun “Göygöl” adlı əsərini Meksika nümayəndələri alıb və bu əsər indi Meksika muzeylərindən birinin eksponatıdır.

**İlk və son etiraf...**

Sara xanımın mənəvi zənginliyi, alicənablığı, elmə xidməti və ümumilikdə, Azərbaycanın tarixinə, mədəniyyətinə olan sonsuz məhəbbəti irsi bir hal idi. Bütün bu müsbət keyfiyyətlərin təzahürü idi ki, Aşurbəylilər soyadına vurulan nahaq damğaya - “xalq düşməni” damğasına baxmayaraq, Sara xanım adına və nəslinə layiq bir tərzdə öz fəaliyyətini davam etdirmişdi.

Dəyərli tarixçi xanıma “Sizin ömrünüz heç də sadə bir insan ömrü olmayıb, nə vaxtsa memuar yazacaqsınızmı?” sualını verəndə o belə cavab vermişdi:

“Bilirsiniz, mən, bəlkə də, heç nə yazmayacağam. Çünki mənim ömrüm doğmalarımın itkisi, dövrün və bir qrup insanların ədalətsiz münasibətləri, xəyanətlər ilə dolu keçib. Bunları yazmaq o hadisələri yenidən yaşamaq deməkdir. Mən bunu bacarmaram...”.

Bu, taleyin ən sərt zərbələri qarşısında belə əyilməyən, bütün ömrünü Azərbaycan tarixinin tədqiqinə həsr edən Sara xanım ilk və son etirafı idi...

Bu gün Sara Aşurbəylinin doğum gününü xatırlamaq təkcə bir alimin xatirəsinə ehtiram deyil. Bu, həm də sarsılmayan ləyaqətin, bilik qarşısında baş əyməyin, zorakılıq qarşısında isə əyilməməyin xatırlanmasıdır. Sara Aşurbəyli sübut etdi ki, insanın əlindən hər şeyi almaq olar, amma əgər o, daxildən möhkəmdirsə, düşüncəsini və yaddaşını əlindən almaq mümkün deyil.

Ən sərt zərbələrə belə əyilməyən bu qadının adı Azərbaycan elminin yaddaşında təkcə alim kimi yox, bütöv bir mənəvi mövqe kimi yaşayır...

***Yeganə BAYRAMOVA***

# BMT süni intellektin uşaqlara mənfi təsiri barədə xəbərdarlıq edib





Süni intellekt tərəfindən yaradılan zərərli onlayn məzmunun heyrətamiz miqdarı BMT sistemində uşaqları istismardan və zehni travmadan qorumaq üçün bir sıra tədbirlərin görülməsi üçün təcili çağırışa səbəb olub. AZƏRTAC BMT-nin məlumatına istinadla xəbər verir ki, təlimatlar və tövsiyələri özündə birləşdirən bəyanatı hazırlayan əsas qurumlardan biri olan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Telekommunikasiya İnkişafı Bürosunun direktoru Kosmas Zavazava uşaqların hədəfə alınma yollarının bir sıra başgicəlləndirici siyahısını təqdim edib. “Bu, tərbiyədən tutmuş dərin saxtakarlığa, zərərli xüsusiyyətlərin yerləşdirilməsinə, kiberhücum və uyğunsuz məzmuna qədər uzanır. “COVID-19 pandemiyası zamanı bir çox uşağın, xüsusən də qızların və gənc qadınların internetdə istismara məruz qaldığını, bir çox hallarda bunun fiziki zərərə çevrildiyini gördük”, - deyə o bildirib.

Uşaqların hüquqlarını müdafiə edən təşkilatlar bildirirlər ki, cinayətkarlar süni intellektdən istifadə edərək uşağın onlayn davranışını, emosional vəziyyətini və maraqlarını təhlil edir, daha sonra onların ələ alınması strategiyasını uyğunlaşdıra bilirlər.

Süni intellekt, həmçinin cinayətkarlara real uşaqların açıq-aşkar saxta şəkillərini yaratmağa imkan verir və bu da cinsi təcavüzün yeni bir formasına səbəb olur. Uşaqların cinsi istismarı ilə bağlı mövcud olan ən etibarlı məlumatları toplamaq üçün yaradılan müstəqil qlobal institut - “Childlight Global Child Safety Institute” özünün 2025-ci il hesabatında ABŞ-da texnologiyanın köməyi ilə uşaq istismarı hallarının 2023-cü ildəki təqribən 4700-dən 2024-cü ildə 67000-ə qədər artdığını aşkar edib.

BMT-yə üzv dövlətlər problemin miqyası və ciddiliyi barədə məlumat əldə etdikcə, bu hallara qarşı daha sərt tədbirlər görürlər. 2025-ci ilin sonunda Avstraliya süni intellektdə risklərin potensial faydalardan daha çox olduğunu əsas gətirərək, 16 yaşdan kiçik uşaqlar üçün sosial media hesablarını qadağan edən dünyanın ilk ölkəsi oldu. Hökumət 10-15 yaş arası uşaqların təxminən üçdə ikisinin nifrət dolu, zorakı və ya narahatedici məzmuna baxdığını, onların yarısından çoxunun kiberhücuma məruz qaldığını göstərən bir hesabata istinad edib. Bu məzmunun əksəriyyəti sosial media platformalarında görülüb.

Malayziya, Böyük Britaniya, Fransa və Kanada da daxil olmaqla bir neçə başqa ölkə də oxşar qadağalar və ya məhdudiyyətlər üçün qaydalar və qanunlar hazırlayaraq Avstraliyanın nümunəsini izləməyə hazırlaşır.

BMT süni intellekt sahəsində savadsızlığa da diqqət çəkir. 2026-cı ilin əvvəlində uşaqların təhlükəsizliyi ilə maraqlanan BMT-nin müxtəlif qurumları 19 yanvarda dərc edilmiş Süni intellekt və Uşaq Hüquqları üzrə Birgə Bəyannaməyə öz adlarını daxil ediblər. Bəyannamədə risklərin təsviri və cəmiyyətin onlarla mübarizə aparmaqda kollektiv acizliyi yer alıb. Bu sənəddə uşaqlar, müəllimlər, valideynlər və baxıcılar arasında süni intellekt savadlılığının olmaması, eləcə də siyasətçilər və hökumətlər üçün AI çərçivələri, məlumatların qorunması metodları və uşaq hüquqlarına təsirin qiymətləndirilməsi üzrə texniki təlimin çatışmazlığı qeyd olunur.

Sənəddə BMT qurumları bu şirkətlərin məhsullarının uşaq hüquqlarına hörmətlə yanaşmasını təmin etməsinin vacibliyini vurğulasalar da, cəmiyyətin bütün təbəqələrini onların istifadə tərzinə görə məsuliyyət daşımağa çağırırlar. Bu kontekstdə Uşaq Hüquqları Konvensiyasına rəqəmsal dövrün təhlükələrini əks etdirmək üçün yeni bir əlavə edilib.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın kollektivi qocaman həkim, YAP üzvü

**ƏLİYEVA ESMİRA RAMAZAN QIZININ**

vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

*İdman*

## “Sabah” 20-ci böyükhesablı qələbəsini qazanıb

“Sabah” Misli Premyer Liqasının XVII turunda “Karvan-Yevlax”a 4:1 hesabı ilə qalib gəlib. Peşəkar Futbol Liqasından verilən məlumata görə, bu, Bakı klubunun yüksək dəstədə 20-ci böyükhesablı qələbəsi olub. Paytaxt təmsilçisi 11 dəfə evdə, 9 dəfə səfərdə üç və ya daha çox top fərqi ilə qalib gəlib. “Sabah” 20 və ya daha çox oyunda belə qələbə qazanan 15-ci komandadır. Onlar bu göstəricidə “ANS-Pivani”yə çatıb. Qeyd edək ki, “Sabah” ilk belə qələbəsini 2019-cu il sentyabrın 29-da qazanıb. “Səbail”lə ev matçında 3 cavabsız qol vurulub.




## FHN-in əməkdaşı Akonkaqua zirvəsini fəth edib



Fövqəladə Hallar Nazirliyi (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicisi Sima Səfərova Azərbaycan Alpinizm Federasiyasının təşəbbüsü ilə Cənubi Amerikanın ən yüksək zirvəsi olan Akonkaquaya (6962 metr) texniki dırmanış edib. FHN-dən AZƏRTAC-a bildirilib ki, qarşıya qoyulan hədəfə uğurla çatan alpinist Azərbaycanın Dövlət Bayrağı ilə bərabər Fövqəladə Hallar Nazirliyinin rəmzi olan bayrağı da Akonkaqua zirvəsində dalğalandırıb.

## AFFA iki klubu cəzalandırıb

AFFA iki klubu texniki məğlubiyyətlə cəzalandırıb. Bu barədə qurumun İntizam Komitəsinin iclasında qərar qəbul olunub. Region Liqasında yanvarın 18-nə təyin olunan “Hacıqabul” - “Bakı TFK” matçı qonaqların gəlməməsi səbəbindən baş tutmayıb. Nəticədə “Bakı TFK” komandasına 0:3 hesablı texniki məğlubiyyət verilib.

Eyni tarixdə Yüksək Qızlar Liqasında keçirilməli olan “Zaqatala QFK” - “Baku Juniors” qarşılaşmasında da oxşar hal yaşanıb. “Baku Juniors” kollektivi təyin olunan vaxtda meydanda olmadığı üçün 0:3 hesablı texniki məğlubiyyətlə cəzalandırılıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4619**
**Sifariş: 147**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova